# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 03 (3469) Cümə axşamı / 26 yanvar - 1 fevral 2023-cü il Qiymәti 40 qәpik


MÜSAHİB

## Qərbi Azərbaycanlıların Qayıdış Konsepsiyası hazırlanır



**Hikmət Babaoğlu,**
Milli Məclisin deputatı

*Tarixi faktlar, sənədlər, xəritələr indiki Ermənistan ərazisinin Azərbaycan türklərinə, azərbaycanlılara məxsus olduğunu hər addımda, hər daş, kağız səhifəsində təsdiqləyir. Artıq bu torpaqlara Azərbaycanlıların Qayıdış Konsepsiyası hazırlanır, sistemləşdirilir. Məlumdur ki, "Qərbi Azərbaycanlıların İcması" İctimai Birliyi yaranıb və dövlət başçısı, Ali Baş Komandan bu tapşırığı verərkən məhz öz xalqının istəklərini, tələblərini nəzərə alıb, dəyərləndirib. Bu istiqamətdə "Həftə İçi"nə danışan Milli Məclisin deputatı, "Qərbi Azərbaycan İcması" İctimai Birliyinin sədr müavini Hikmət Babaoğlu mühüm faktlara diqqət çəkib.*

*Ermənilər azərbaycanlıların öz tarixi vətənlərinə qayıtmaq hüququnu Ermənistana qarşı ərazi iddiası kimi təqdim etməyə çalışırlar*

Səh. 3

MÜSAHİB



**Qabil Hüseynli,**
politoloq

■ Hər halda ermənilərin bir arzusu da sərhədlərin açılması və Türkiyə ərazisindən istifadə edərək, dünyaya çıxış əldə etməkdir

■ Rusiya indi də istəyir ki, bölgədə mövcud olan problem "tüstülənən ocaq" kimi qalsın, tərəflər bir-biri ilə daim çəkişsinlər

■ Avropa, Qərb olmayan "humanitar fəlakət", "təcrid" və sair çərənləmələri önə çəkirlər

Səh. 3

# Daşınmaz əmlak alırsansa...

***Bu** ildən daşınmaz əmlak bazarında bir neçə yeniliyin tətbiqi nəzərdə tutulur. Belə ki, Azərbaycanda daşınmaz əmlakın alqı-satqısı üzrə, mənzil-tikinti kooperativinin üzvünün pay haqqı üzrə və bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən yaşayış və qeyri-yaşayış sahələrinin alınması ilə bağlı həyata keçirilən ödənişlərin yalnız nağdsız qaydada həyata keçirilməsi planlaşdırılıb. Bununla bağlı ötən il "Nağdsız hesablaşmalar haqqında" qanuna yeni maddə əlavə edilib və bu qaydanın bu il fevralın 1-dən qüvvəyə minməsi nəzərdə tutulur. Eyni zamanda, Vergi Məcəlləsinin 165.6-cı maddəsinə uyğun olaraq fiziki şəxs olan istehlakçılar tərəfindən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış əmlaka görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması şərtləri və qaydası müəyyənləşdirilib.***



Qanunvericilikdə edilmiş dəyişikliyə əsasən, mənzil alanda ƏDV-nin bir hissəsinin geri qaytarılması nəzərdə tutulub.

Amma burada bir məsələ var ki, mövcud qanunvericiliyə əsasən, həm nağd, həm də nağdsız əməliyyatlar zamanı banklar müəyyən məbləğdən sonra vəsaitin mənbəyi ilə bağlı müştəridən deklorasiya tələb edirlər. Nəzərə alaq ki, indiki halda daşınmaz əmlakın nağdsız alqı-satqısı yalnız çıxarışlı (kupçalı) binalarda mümkündür. Həmin binalarda isə mənzilin 1 kvadratmetri minimum 1500 manatdan başlayır. Çıxarışlı binadan sahəsi 60 kvadratmetr mənzil almaq istəyən vətəndaş buna görə təqribən 90-95 min manat vəsait ödəməlidir. Bəs, görəsən, daşınmaz əmlakın alqı-satqısı zamanı vətəndaşlardan ödənilən vəsaitin deklorasiyası tələb olunacaqmı? Ümumiyyətlə, nağdsız alqı-satqı daşınmaz əmlak bazarına necə təsir göstərəcək?

■ **Məsələni qəzetimizə şərh edən daşınmaz əmlak sahəsi üzrə ekspert Elnur Fərzəliyev deyib ki, bu sahədə alqı-satqı ilə bağlı yeni hüquqi tənzimləməyə ehtiyac var:**

"Bildiyimiz kimi bu gün Azərbaycanda daşınmaz əmlakın alqı-satqısı üç formada aparılır. Çıxarışlı mənzillərin alqı-satqısı notarial qaydada rəsmilləşdirilir. Bu növ alqı-satqı zamanı daşınmaz əmlakı alan şəxs notarial qaydada sənədlər yoxlanıldıqdan sonra ödənişi ona verilən hesab nömrəsinə edir və əmlakı satan da həmin hesab nömrəsi üzərindən öz vəsaitini nağdlaşdırır.

Çıxarışı olmayan yeni tikili binaların ilkin alqı-satqısı müqavilə ilə aparılır. Yəni MTK-nın vediyi müqavilə və maliyyə arayışı əsasında onun rəhbərinə nağd şəkildə ödəniş edilir. Yeni tikili binalarda təkrar satışlar zamanı isə çıxarış olmadığına görə və prosedur notarial qaydada getmədiyinə görə burda da ödəniş nağd formada edilir. Amma hazırda Bakıda yüz minlərlə çıxarışı və ya müqaviləsi olmayan fərdi həyət evləri var. Bu evlərin satılması üçün bir mexanizm

*"Adətən bu sahədə alqı-satqı zamanı müştəridən deklorasiya tələb edilmir*

*Banklar bəzən 20 min manatdan aşağı əməliyyatların da sorğu-sualını aparır*

yoxdur. Buna görə də vətəndaşlar bu evləri bir-birinə daha çox etibarnamə yolu ilə satır, yaxud sayğacları alıcının adına keçirirlər. Bu zaman da ödəniş nağd şəkildə olur". Ekspert hesab edir ki, daşınmaz əmlakın alqı-satqısının nağdsız formada aparılması üçün ilk növbədə həmin satış mexanizmləri dəyişilməlidir:

"Məsələn, yeni tikili binalarda satılan mənzillərin hər birinin reyestri aparılmalı, bütün mənzillər qeydiyyata alınmalıdır. Bu, həm də bir mənzilin bir neçə şəxsə satılmasının qarşısını alar. Amma bu mənzillərin çıxarışlar verilənə qədər təkrar satışı zamanı hansı mexanizmin tətbiq edilə bilməsi sual altındadır. Sənədi olmayan həyət evlərinin də ilkin qeydiyyatı olmalı, onların rəsmiləşdirilməsi hansısa dövlət qurumunda aparılmalıdır ki, alqı-satqı prosesi nağdsız ödənişlə olsun. Sözügedən qanunun tətbiqi üçün daşınmaz əmlakın alqı-satqısı ilə də bağlı qanuna dəyişiklik edilməlidir. Əks halda yeni mexanizmin işləməsi çox çətindir. Qanun bütün daşınmaz əmlakın alqı-satqısını nəzərdə tutur. Amma bu gün satışa çıxarılan daşınmaz əmlakın maksimum 30 faizinə bu qanunu tətbiq etmək olar. Çünki satılan evlərin böyük əksəriyyəti çıxarışı olmayan evlərdir".

Daşınmaz əmlakın alqı-satqısı prosesində vətəndaşlardan ödənilən vəsaitə dair deklorasiya tələb olunub-olunmayacağına gəlincə, ekspert qeyd edib ki, adətən bu sahədə alqı-satqı zamanı müştəridən deklorasiya tələb edilmir: "Düzdür, banklar digər istiqamətlər üzrə müştəridən vəsaitin mənbəyini soruşurlar. Qanunvericiliyə görə, nağdsız alqı-satqı çıxarışlı binalarda mümkündür. Çıxarışlı mənzillərin alqı-satqısı isə notarial qaydada rəsmilləşdirilir. Bu növ alqı-satqı zamanı daşınmaz əmlakı alan şəxs notarial qaydada sənədlər yoxlanıldıqdan sonra ödənişi ona verilən hesab nömrəsinə edir və əmlakı satan da həmin hesab nömrəsi üzərindən öz vəsaitini nağdlaşdırır".

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən bank məsələləri üzrə ekspert, hüquqşünas Əkrəm Həsənov deyib ki, "Çirkli pulların yuyulması" haqqında qanunvericiliyə əsasən, 20 min manatdan artıq vəsaiti bank şübhəli əməliyyat kimi qeydə ala bilər:** "Bu limit həm nağd, həm nağdsız bütün əməliyyatlara aiddir. Amma biz müşahidə edirik ki, banklar bəzən 20 min manatdan aşağı əməliyyatların da sorğu-sualını aparır. O ki qaldı daşınmaz əmlakla bağlı məqama bankın ixtiyarı var ki, 20 min manatdan yuxarı olan əməliyyatın mənbəyini araşdırsın. Düzdür, çoxmənzilli binalarda 20 minə mənzil yoxdur. Qiymətlər 50-60 min manatdan başlayır. Bankların nağdsız şəkildə daşınmaz əmlak alanlardan vəsaitini sorğu-sual edib-etməyəcəyini isə zaman göstərəcək. Hələlik bu barədə konkret fikir bildirmək mümkün deyil".

***Sevinc***

GÜNÜN FOTOSU...



**Gün ərzində Laçın yolundan 61 avtomobil keçib**

GÜNÜN SİTATI



*"Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı əfv sərəncamı imzalanacaq"*

**Zahid Oruc,**
Milli Məclisin İnsan hüquqları komitəsinin sədri

KARİKATURA




**Kimdir müqəssir?**

## "İran üçün böyük təhlükə..."

**Elxan Şahinoğlu**
politoloq

Tehran İran sərhədinə yaxın ərazidə yerləşəcək Avropa İttifaqının missiyasını tənqid edəcəksə, avtomatik həmin missiyanı bölgəyə dəvət edən Ermənistanı da tənqid etməlidir. Səh. 2

STATİSTİKA



■ **2022-ci il ərzində ümumilikdə vergi orqanlarına 284 min 494 müraciət daxil olub ki, bunun da 91,3%-i ərizə, 8,6%-i şikayət, 0,1%-i təklif olub.**

Daxil olmuş müraciətlərdən 98,4%-nin baxılması 2022-ci il ərzində başa çatdırılıb, 1,6%-i hazırda icradadır. Baxılmış müraciətlərdən 66,4%-i həll olunub, 29,4%-i barədə müvafiq izahat verilib, qalanları haqqında qanunvericiliyə uyğun qərarlar qəbul olunub.



Səh. 2

## Siyasilər ekoloji aksiyaya qatılmalıdırmı?

## XƏBƏR LENTİ

### Baş nazirdən Zəngilan aeroportu ilə bağlı qərar




**Nazirlər Kabineti 10 sentyabr 2021-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısı"nda dəyişiklik edib.** Bununla bağlı Baş Nazir Əli Əsədov yeni qərar imzalayıb. Qərara əsasən, sözügedən siyahıya Zəngilan Beynəlxalq Hava Limanında dövlət sərhədindən buraxılış məntəqəsi (Zəngilan şəhəri) əlavə edilib.

### Böyük Qayıdışla bağlı qanun layihəsi hazırlanacaq



**İşğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış və reinteqrasiya" ilə bağlı qanun layihəsi hazırlanacaq. Bu, İnsan hüquqları komitəsinin 2023-cü il iş planına daxil edilib.** Qeyd edək ki, Prezident İlham Əliyev 16 noyabr 2022-ci il tarixdə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Bu baxımdan, Böyük Qayıdışla bağlı qanun layihəsinin hazırlanması zəruri hesab edilir.

### May ayında böyük əfv olacaq



**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı əfv sərəncamı imzalanacaq. Bunu Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib.**

Əfv Komissiyasının üzvü Zahid Oruc bildirib ki, indiyədək təmsil olunduğu komissiyanın üç iclası keçirilib, 360-dan çox müraciətə baxılıb: "Düşünürəm ki, iclaslar may ayına kimi davam edəcək". Zahid Oruc qeyd edib ki, Ulu Öndərin 100 illiyi ilə bağlı böyük əfv qərarı icra ediləcək.

### Misir prezidentinin Azərbaycana gəlir

**Misir Prezidenti Əbdül-fəttah əs-Sisinin Azərbaycana səfərinin tarixi bilinib. Misirin Azərbaycandakı səfirliyindən bildirilib ki, Misir lideri regiona səfəri çərçivəsində ilk olaraq 27-28 yanvar tarixlərində Azərbaycana gələcək.**



Diqqətə çatdırılıb ki, bu Misir dövlət başçısı Əbdül-fəttah əs-Sisinin Azərbaycana ilk səfəri olacaq. O, Azərbaycana səfərini yekunlaşdırdıqdan sonra Ermənistana yola düşəcək.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Siyasilər ekoloji aksiyaya qatılmalıdırmı?

***Azərbaycanın ictimaiyyət nümayəndələrinin, ekofəalların Laçın - Xankəndi yolunda keçirdiyi dinc aksiya, artıq 47 gündür davam edir. Ermənistan sülhə gəlmir, əksinə sərsəm iddialarından əl çəkmir. Azərbaycanın ərazi suverenliyini pozan, ölkənin sərvətlərini talayıb ərazilərimizi növbəti ekoloji terrorra məruz qoyan erməni separatçılarına qarşı hər hansı bir etiraz nümayiş etdirməyən Avropanın, Qərbin bəzi təşkilatları, əksinə, "humanitar dəstək" adı ilə aksiyanı dayandırmağı tələb edirlər.***



## Sorğu

Erməni separatçıları və havadarları Azərbaycan vətəndaşlarının öz haqları naminə keçirdiyi dinc aksiyanın mahiyyətini özlərinə qarşı "humanitar terror" kimi təbliğ edərkən, nədənsə, müharibədən sonra üçtərəfli sazişi nəyə görə yerinə yetirmədiklərinin, hansı əsasla başqa bir ölkənin torpağında qanunları pozduqlarının hesabını vermək istəmirlər. Bu gün dünyanın ikilistandartlı yanaşmaları ilə üzüzə dayanan Azərbaycanın ictimaiyyət nümayəndələrinin öz torpağında ekoloji terrora son qoyulmasını ilə bağlı keçirdiyi dinc aksiya nəyə görə beynəlxalq ictimaiyyəti, Ermənistanı bu qədər narahat etməlidir? Nəyə görə sülhə gəlməyən Ermənistanın ölkəmizdə öz məkirli məqsədlərindən istifadə edilməsinə imkan yaratmalıyıq?

Məhz belə bir vaxtda Azərbaycanın siyasi partiyaları, deputatları, ictimai-siyasi çəkisi olan digər şəxsləri Laçın - Xankəndi yolunda keçirilən aksiyaya qatılmalıdırmı? Bu, aksiyaya hansı əlavə çalarlarqatar? Elə bu suallarla bir çox partiya sədrləri və deputatlara sorğu keçirib rəylərini aldıq.

■ **Elman Nəsirov, Milli Məclisin deputatı:**

Vətəndaş cəmiyyəti nümayəndələrinin, ekofəalların Laçın-Xankəndi yolunda 50 günə yaxın davam edən etiraz aksiyasında gənclərin iştirakı xüsusilə diqqətə layiqdir. Bunu təsadüfi hesab etmirəm. Etirazın səbəbləri bəllidir və söhbət mülki insanların ərazilərimizdə ekoloji terrora qarşı keçirdikləri aksiyadan gedir. Aksiyaçıların sıralarında yaşlı insanlar yoxdur. Ermənilər və havadarları aksiyada yaşlı insanların olmasından istifadə edib, ölkəmizə qarşı "Dövlət nümayəndələri aksiyada iştirak edir" kimi yersiz ittihamlar, iddialar səsləndirə bilər. Hər bir vətəndaş kimi, millət vəkilləri də öz dövlətinin əsgərləridirlər və istənilən vaxt dövlətin, millətin mənafeyi naminə hər bir aksiyada iştirak etməyə hazırdırlar. Amma bir şərtlə ki, bu iştirak səmərəli, faydalı olsun və strateji hədəfimizə xidmət göstərsin. Millət vəkilləri bu aksiyaya qatılacağı təqdirdə etirazın mahiyyəti dəyişəcəksə və ermənilər bundan istifadə edib məsələni fərqli bucaq altında təbliğ edəcəksə, bu, artıq xoşagəlməz prosesə çevrilə bilər. Ona görə də millət vəkillərinin aksiyada iştirakı, hələ ki, gündəmdə deyil. Bir məsələni bilmədidirlər ki, bu aksiya gənc ekofəalların etirazıdır və öz haqq işlərini müdafiə edirlər".

■ **Razi Nurullayev, Milli Məclisin deputatı:**

- Siyasi partiyaların, ictimai-siyasi çəkisi olan digər şəxslərin Laçın-Xankəndi yolunda keçirilən aksiya məkanına səfərlərini doğru hesab etmirəm. Bu, vətəndaş cəmiyyəti təmsilçilərinin dinc aksiyasıdır və bunu siyasiləşdirmək bizim xeyrimizə deyildir.

Ancaq aksiyada vətəndaş cəmiyyəti təmsilçilərinin, QHT-lərin, ictimai fəalların sayı, tələbləri artmalıdır. O insanlar aksiyada iştirak etməklə öz içlərindən gələn istəklərini yerinə yetirirlər. Təbii ki, bütün insanlarımız, hər kəs aksiyaçıları dəstəkləyir. Belə təcrübə bütün dünyada var. "G7" dünyanın 20 ölkəsinin rəhbərinin qatıldığı tədbirlərin qapılarını belə vətəndaş cəmiyyətinin təmsilçiləri bağlayıb, etirazlarını bildirir. Bizim də vətəndaş cəmiyyəti nümayəndələri öz etirazlarını bu şəkildə bildirirlər. Onların bu etirazlarını siyasiləşdirməyək. Bu, Azərbaycanın ziyanına işləyə bilər. Heç bir halda, hələ ki, əraziyə deputatların, siyasi partiyaların getməsi doğru deyil.

■ **Fuad Əliyev, ALDP sədri:**

- ALDP xaricdə əməkdaşlıq etdikləri partiyalara, Avropa Parlamentində olan bəzi deputatlara, beynəlxalq təşkilatlara həftədə iki dəfə aksiya ilə bağlı məlumatlar göndərir və bu formada prosesə dəstək verməyə çalışır. Siyasi partiyaların, deputatların aksiya keçirilən yerə səfərindən istifadə edən bəzi qruplar bu prosesə başqa don geyindirə bilərlər. Bu aksiya Azərbaycan ekofəallarının, QHT-lərin, media işçilərinin dəstəyi ilə uğurla davam edir. Siyasi təşkilatların aksiyada iştirakı başqa bir mənzərə yarada bilər.

Aksiya ilə bağlı onsuz da kifayət qədər yersiz iddialar, yalanlar ortaya atılıb. Siyasilərin səfəri ilə ermənilərin əlinə yeni bəhanələr verməməliyik. Onsuz da ölkəmizə qarşı xarici təsirlər var. Siyasi partiyaların aksiyada iştirakı olsa, təzyiqlər daha da güclənəcək. Ona görə də hər bir təşkilat aksiyada birbaşa iştirak etmədən də dəstək verə bilər. Hər kəs öz vaxtını, öz əməyini, imkanlarını buna sərf etməlidir. Bəzi məqamlar var ki, biz ona nail olmuşuq. Aksiya davam etməlidir və inanıram ki, uğur bizimlə olacaq və öz istəyimizə nail olcağıq.

■ **Zəlimxan Məmmədli, Haqq-Ədalət Partiyası Ali Məclisinin sədri:**

- Azərbaycan ərazisində vətəndaşların hərəkətləri sərbəstdir və digər kateqoriyadan olan insanlar da bu aksiyada iştirak hüququna sahibdirlər. Fikrimcə, təşkilatçılarla koordinasiyalı fəaliyyət daha məqbuldur. Ermənilərin nə cür davranmasından asılı olmayaraq, Azərbaycan öz ərazisinin suverenliyini təmin etmək haqqına malikdir.

Aksiya suverenlik hüququnun təmini, Azərbaycan xalqının Azərbaycan suverenliyinə, qanunlarına hörmətlə yanaşan, separatçılıqdan uzaq ermənilərin vətəndaş hüquqlarının təminatına ehtiramlı yanaşdığının nümayişi baxımından əhəmiyyətli aksiyadır. Sadəcə, informasiya siyasətimiz və diplomatiyamız baş verənlərə və perspektivdə baş verə biləcək hadisələrə uyğunlaşdırılmalıdır. Haqlı olduğumuz halda haqsız duruma düşməməliyik.

■ **Rauf Qurbanov, AKP sədri:**

- Siyasilərin Laçın-Xankəndi yoluna səfərinin təşkil olunmasını mümkündür. Bununla belə bu səfərin problemin həllinə müsbət təsir göstərəcəyini düşünmürəm. Nəzərə alsaq ki, Laçın-Xankəndi yolunda aksiya keçirənlər ekofəallardır və onlar ərazidə ekologiyanın pozulması ilə əlaqədar aksiya keçirirlər, onda Respublikada ictimai-siyasi çəkisi olan şəxslərin həmin tədbirə qatılması qarşı tərəfin əlinə məsələni siyasiləşdirmək üçün ciddi əsas verər. Onsuz da ermənilər bu aksiyanın keçirilməsi ilə bağlı beynəlxalq təşkilatları, dünyanın aparıcı dövlətlərini inandırmağa çalışırlar ki, Azərbaycan Xankəndini mühasirəyə alıb və orada yaşayan dinc insanların hüquqlarını pozur.

Bütün bunları nəzərə alaraq hesab edirəm ki, belə bir səfərin təşkil olunması ümumi işin xeyrinə olmaz. Demokratik dəyərlərə malik olan, insan hüquqlarına ehtiramla yanaşan, ekologiyanın pozulmasını təbiət qanunlarına zidd hərəkət kimi qəbul edən sivil xalqlar, dövlətlər üçün aksiyada iştirak edən insanların say tərkibi elə də ciddi bir əhəmiyyət kəsb etmir. Çox təəssüflər olsun ki, belə sivil yanaşmanı Ermənistan dövlətinin ünvanına demək olmaz. Bu baxımdan, hesab edirəm ki, aksiyanın genişləndirilməsinə ehtiyac yoxdur.

✍ *Tahirə Qafarlı*

> “
>
> *Millət vəkillərinin aksiyada iştirakı gündəmdə yoxdur*
>
> *Hələ ki, əraziyə deputatların, siyasi partiyaların getməsi doğru deyil*
>
> *Siyasi təşkilatların aksiyada iştirakı başqa bir mənzərə yarada bilər*
>
> *Haqlı olduğumuz halda haqsız duruma düşməməliyik*
>
> *Siyasilərin Laçın-Xankəndi yoluna səfərinin təşkil olunmasını mümkündür*

# "İran üçün böyük təhlükə..."

***Xəbər verildiyi kimi, Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Daşkənddə İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 26-cı iclası çərçivəsində iranlı həmkarı Hüseyn Əmir Abdullahianla görüşüb. Eyni gündə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi ilə görüşüb.***




Hər iki görüşdə konkret hansı mövzuların müzakirə edildiyi açıqlanmayıb. Bu görüşlər İranın Azərbaycana qarşı çıxışlarına son qoyacaqmı?

■ **Politoloq Elxan Şahinoğlu hafta.-az-a bildirib ki, iki ölkənin münasibətlərində gərginlik o qədər irəliləyib ki, müzakirə olunan mövzuların açıqlanmamasına üstünlük verilir.** Onun sözlərinə görə, Tehran Azərbaycanla münasibətlərdəki gərginliyin miqyasını azaltmaq istəyirsə, birinci növbədə, Azərbaycanın daxili işlərinə - hansı dövlətlə dost və tərəfdaş olma seçiminə qarışmamalıdır: "Eləcə də Tehran Zəngəzur dəhlizinin reallaşmasına əngəl olmamalıdır; İranın din xadimləri, generalları, deputatları Azərbaycan əleyhinə çıxış və açıqlamalarına son qoymalıdırlar".

Politoloq hesab edir ki, Tehranın bu minimum şərtləri yerinə yetirəcəyinə inam azdır. Onun fikrincə, İranın xarici işlər naziri və ya ölkəmizdəki səfiri vəziyyətin düzəlməsini istəsələr belə, bu onlardan asılı deyil: "Tehran və Qumdakı mühafizəkar dairələrin, o cümlədən SEPAH generallarından birinin anti-Azərbaycan açıqlaması və ya internet görüntüsü paylaşması ilə diplomatların münasibətlərin normallaşdırılması üçün fəaliyyətlərinin üstündən xətt çəkəcək". E.Şahinoğlu İran rəsmilərinin və diplomatlarının əzbərlədikləri bir açıqlamanı önə çəkib. Orada qeyd olunur ki, bölgəyə aid olmayan ölkələrin işlərimizə qarışmasına imkan verilməməlidir.

"Tehran Ermənistanı dəstəkləyir və iranlı rəsmilər "Ermənistanın təhlükəsizliyi İranın təhlükəsizliyidir" açıqlamasını səsləndirirlər. Hazırda məhz rəsmi İrəvan Tehranın bu tezisinə tərs siyasət yürüdür. Avropa İttifaqı monitorinq missiyasını bölgəyə dəvət edən Ermənistandır. Azərbaycan isə əksinə, bunun əleyhinədir. Digər tərəfdən, həmin missiyanın tərkibində Fransa geniş şəkildə təmsil olunacaq. Tehran-Paris münasibətləri isə gərgindir. Belə çıxır ki, İranın regional maraqları üçün ən böyük təhlükə rəsmi İrəvanın siyasəti ilə bağlıdır. Misal üçün, Kreml Ermənistan hakimiyyətinin Avropa İttifaqı missiyasının Azərbaycanla təmas xəttinə dəvət edilməsini tənqid edib, bunun mövcud problemləri həll etməyəcəyi qənaətindədir. Tehranın isə Avropa İttifaqı missiyası ilə bağlı hələ ki, açıqlaması yoxdur. Tehran İran sərhədinə yaxın ərazidə yerləşəcək Avropa İttifaqının missiyasını tənqid edəcəksə, avtomatik həmin missiyanı bölgəyə dəvət edən Ermənistanı da tənqid etməlidir". Politoloq bildirir ki, hələ ki, Tehran Ermənistanı tənqid etməyə hazır deyil: "Görünür ki, Tehran eyni zamanda həm Bakı, həm də İrəvanla münasibətləri gərginləşdirmək istəmir. İranın Azərbaycanla münasibətləri uzun illlərdir enişli-yoxuşludur, Tehran Ermənistanla münasibətlərdə isə heç zaman problem yaşamayıb. Ona görə də Tehran Ermənistana yönəlik siyasətini dəyişməyə hazır deyil. Halbuki, Avropa İttifaqının missiyasını ən azı iki il müddətinə bölgəyə dəvət edən İrəvan Rusiya ilə yanaşı İranın maraqlarını da nəzərə almayıb".

> “
>
> *Tehran İran sərhədinə yaxın ərazidə yerləşəcək Avropa İttifaqının missiyasını tənqid edəcəksə, avtomatik həmin missiyanı bölgəyə dəvət edən Ermənistanı da tənqid etməlidir*

✍ *Tahirə Qafarlı*

# "Laçın yolunda aksiya dayandırıla bilər..."

***Laçın yolunda etiraz aksiyası davam edir. Qərbdən Azərbaycana qarşı təxribat xarakterli təzyiqlər artmaqdadır. Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması ilə bağlı sülh prosesi tamamilə dayandırılıb. Xankəndidəki separatçı rejimin qalıqları yenidən müharibə bəyanatları səsləndirir, qanunlarımıza tabe olmayacaqlarını bildirirlər. Bölgəmizdəki bu çətin vəziyyət fonunda yaşanan prosesləri politoloq Qabil Hüseynli ilə müzakirə etdik:***



**Qabil Hüseynli,**
politoloq

## Müsahib

***- Qarabağda, hələ ki Azərbaycanın nəzarətində olmayan, sülhməramlıların missiyasına daxil olan ərazilərimizdə vəziyyət nədir?***

- Vəziyyət elə də ürəkaçan deyil. Azərbaycanın suveren hüquqları hələ ki, bu ərazilərə yayılmayıb. Üstəlik, həmin ərazidə erməni silahlı qüvvələrinin tör-töküntüləri, sayları 5-10 min arasında olduğu bildirilən qeyri-qanuni hərbi qüvvələr var.

Qarabağın hazırda ermənilərin yaşadığı ərazilərində isə Rusiyanın layihəsi kimi ortaya atılmış Ruben Vardanyan kimi təhlükəli bir dələduz var və o, Azərbaycana qarşı müharibə ritorikasını daim işə salır və bir növ vəziyyəti gərginləşdirir. Üstəlik, dünya ictimai rəyi Laçın - Xankəndi yolunun bir hissəsində Azərbaycan ictimai fəallarının həyata keçirdiyi dinc aksiyanı o əraziləri blokadaya almaq cəhdi kimi qiymətləndirir.

Laçın yolundan humanitar xarakterli, hətta bəzən insanların ehtiyaclarını qarşılamaq üçün yüklərin daşınmasına icazə verilsə də, elə təsəvvür yaradırlar ki, guya yol tamam bağlanıb. Məlum məsələdir ki, Azərbaycanın şərtləri yerinə yetirilərsə, Laçın yolunda ictimai fəalların aksiyası dayana bilər.

***- Qərbin, Avropanın aksiyanın dayandırılması, guya öz ərazilərimizi "blokadaya almağımızla" bağlı sərsəm iddialarla Azərbaycana qarşı təsir elementlərini görürük. Bu cür yanaşmalarla nəyə nail olmağa çalışırlar?***

- Avropa Birliyi müəyyən mənada Ermənistan-Azərbaycan arasında sülh bağlanması üçün kifayət qədər səy göstərdi və Brüssel şəhərində 4 dəfə hər iki ölkənin yüksəksəviyyəli nümayəndələrinin görüşü keçirildi. Sülh müqaviləsi yönündə demək olar ki, müəyyən məsafə qət edilmişdi. Məsələ budur ki, Fransanın bu işlərə müdaxiləsi, xüsusilə Prezident Makronun Azərbaycan əleyhinə sərsəm fikirlər söyləməsi ilə bu proses 4-cü görüşdən sonra dayandı.

Fransa Ermənistanın yaratdığı şəraitdən istifadə edərək, Praqada olan görüşə birtəhər özünü "pərçimləyə" bilmişdi. Daha sonra Ermənistan Brüssel prosesində və yaxud Avropa Birliyinin vasitəçiliyi ilə aparılan bütün danışıqlar prosesində Makronun iştirakının zəruri olduğunu söylədi və olmayacağı təqdirdə sülh danışıqlarının baş tutmayacağını iddia elədi. Təbii ki, razılaşmalarda Fransanın bir vasitəçi kimi iştirak etməsinə və orada açıq surətdə ermənipərəst mövqe nümayiş etdirməsi kimi gedişlər nəzərdə turulmamışdı.

İndi isə Ermənistan Rusiya ilə əlaqələrini minimuma endirib və bu ölkənin olduğu müxtəlif adda qurumlardan çıxmağa hazırlaşır. Ermənistan öz istiqamətini birmənalı olaraq Qərbə yönəldir. Qərbin iqtisadi-siyasi strukturlarına, NATO-dan başlayaraq, iqtisadi birliklərə qədər inteqrasiya etmək xəttini tutub və bunu çəkinmədədn bəyan edir və bildirirlər ki, Ermənistan artıq Avropa dövləti olacaq. Beləliklə, Ermənistan müəyyən məsələləri həll etmək istəsə də, əsas məsələni-sülh yaratmaq, sülhün möhkəmləndirilmək istiqamətindəki istəklərini bir kənara qoyub, sülhyaratma prosesinə dəstək vermir, bəzi hallarda isə onu bloklayır və nəticə etibarilə bölgədə qarşıdurmanı tətikləyən bir ab-hava yaranıb. Bu çox qorxulu və təhlükəlidir. Burada məsuliyyət birmənalı olaraq Ermənistan siyasi rəhbərliyinijn üzərinə düşür.

***- "Qorxulu və təhlükəli vəziyyət" deyərkən, Ermənistan tərəfinin yeni müharibəyə hazırlıqlar istiqamətində gördüyü işlərə işarə edirsiz?***

- Baxmayaraq ki, Azərbaycanın qədim, tarixi torpaqları olan İrəvan xanlığının ərazisində ermənilərə özlərinə dövlət qurup, orada yaşayan azərbayacanlıların hamısı deport edilib, öz yurdlarından çıxmağa məcbur qalıb, Azərbaycan reallıqları qəbul edir. Bizim Ermənistan torpaqlarına iddialarımız yoxdur. İndiki Ermənistan əraziləri Azərbaycanın tarixi torpaqları olsa da, həmin dövlətin ərazi bütövlüyünü qəbul edirik. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü qəbul etsə də, görünən odur ki, başqa hərəkətlər edir. Bizim ərazi bütövlüyümüzlə bağlı ən mühüm məsələ Qarabağın dağlıq hissəsindəki separatçı ermənilərin tərk-silah edilib, Azərbaycan qanunlarına tabe etdirilməsidir. Ermənistan bu məsələdə yaxasını kənara çəkmək istəsə də, əslində, qızışdırıcı rol oynayır. Laçın yolu ilə bağlı qaldırılan müxtəlif iddiaların da arxasında Ermənistan gizlənir. Belə demək mümkünsə, xristian dünyası da əl-ələ verərək, Qarabağın dağlıq hissəsindəki ermənilərə qarşı gah "genosid", gah "humanitar fəlakət" iddiaları ilə nəğmələr oxuyur və real faktlar əvəzinə, yalançı iddialarla Azərbaycanın imicinə zərər gətirən müxtəlif təbliğat kampaniyaları aparırlar. Avropa Parlamentinin qəbul etdiyi son anti-Azərbaycan qətnaməsi də özünün subyektivliyi, tarixi obyektivlikdən, ədalətdən kənar olması, üstəlik, qızışdırıcı mövqeyi ilə seçilir. Bütün bunların fonunda deyə bilərik ki, müharibə təhlükəsi qalır. Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin 10 minə yaxın şəxsi heyyət daxil olmaqla, silah və texnikası qalır. Bu silahlı qüvvələrin çıxarılması 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli müqavilənin 4-cü maddəsində öz əksini tapıb.

Bu maddəyə əsasən Azərbaycan ərazisində bir erməni əsgəri qalmamalıdır. Azərbaycanın əsas məqsədi birirnci növbədə, həmin silahlı qüvvələrin ərazilərdən çıxarılması, yaxud onların yox edilməsini təmin etməkdir. Azərbaycan bununla bağlı lokalxarakterli antiterror əməliyyatları keçirməyə hazırdır. Sadəcə olaraq bunun həyata keçirilməsi müəyyən müddətə qədər gözləmə mövqeyini saxlayır.

***- Belə bir şəraitdə, Azərbaycan vətəndaşları Laçın-Xankəndi yolunda keçirilən dinc aksiyalarda aktiv iştirak edir. Aksiyanın bundansonrakı xarakterində siyasilərin iştirakı ilə hansı dəyişikliklər edilə bilərmi?***

- Dinc aksiyalara yanaşmada dünyanın tərəfkeş addımlarını görürük. Biz tutaq ki, aksiya iştirakçılarının tərkibində siyasilərin, yaxud digər şəxsləri qatsaq da, hələ ki, vəziyyətin istənilən səviyyəyə gələcəyi haqqında tam fikir söyləmək çətindir. Ermənistan bütün dünyaya yayıb ki, guya Laçın yolunda olan erməni əhalisi acından qırılır, hətta "Leninqrad blokadası"na bənzər blokadanın mənzərəsini yaratmağa çalışırlar. Əslində, humanitar dəhliz özünün fəaliyyətini göstərir, Xankəndinə humanitar yüklər daşınır, "Qırmızı Xac Cəmiyyətinin, Rusiya sülhməramlılarının maşınları, eləcə də ermənilərin özlərinin o yoldan Ermənistana sərbəst keçmələri üçün də hər hansı maneə yoxdur. Nədənsə dünya bu məsələyə daha tərs, qızışdırıcı mövqe tutur, Azərbaycana təzyiqlər göstərir. Yolun açılmasını və oradan bütün maneələrin götürülməsini tələb edirlər. Əgər bu məsələdə Rusiya müəyyən mənada neytral idisə, artıq o da yolun açılması ilə bağlı danışıq aparmağa başlayıb. Biz yolun açılmasına o zaman razı ola bilərik ki, bundan sonra həmin yolda rengen-skayner tipli yoxlama aparatlarının yerləşdirilməsinə icazə verilsin. Həmin aparatların işləmə vəziyyəti, yoldan ötən insanların gömrük nəzarətindən keçməsində də Azərbaycan tərəfi cavabdeh olsun. Bu məsələdə ermənilər ayaqlarını dirəyib müsbət cavab vermək istəmirlər. Onları müdafiə edən, qızışdıran dairələrin konstruktiv hərəkətlər etməmələri barədə qulaqlarına "pıçıldayırlar".

> *Hər halda ermənilərin bir arzusu da sərhədlərin açılması və Türkiyə ərazisindən istifadə edərək, dünyaya çıxış əldə etməkdir*

***- Avropa İttifaqının müşahidə missiyasının Ermənistana səfəri özündə nəyi ifadə edir?***

- Təəccübünü gizlədə bilmirsən. Balaca bir ölkəyə, cəmi 2 milyon əhalisi olan bu qədər hərtərəfli qayğının mənasını başa düşmək çətindir. Azərbaycanın qazı ilə isinən, nefti ilə problemlərini həll edən Avropa ölkələri hadisənin mahiyyətinə varmaq istəmirlər.

Azərbaycanın ərazi bütövlüyünü tanımısınız. Azərbaycan istəyir ki, öz ərazilərində sülhü bərqərar etsin, suverenliyi təmin olunsun. Niyə Avropa, Qərb Azərbaycanın ərazi bütövlüyünü tanıdığı halda, onun suverenliyinin bərpasına qaşı çıxmalıdır? Nəyə görə Azərbaycan öz daxilində sərhədlərinin təhlükəsizliyini təmin etməməlidir?! Avropanın hansı ölkəsi öz sərhədini işğalçı dövlətə açıq saxlayıb. Düşünsünlər...

Görünən odur ki, Avropanın xristian təəssübkeşliyi, ikili standartlara əsaslanan yanaşma tərzi, hadisələri düzgün araşdırmağa, Azərbaycanın bu bölgədəki istəklərinin nədən qaynaqlandığını öyrənməyə imkan vermir. Azərbaycan geniş siyasi iş aparıb, onların nəzərinə bir daha çatırmalıdır ki, biz suverenliyimiz uğrunda mübarizə aparırıq. Biz işğalçını ərazilərdən qovub-çıxarmışıq, amma tör-töküntüləri ərazilərimizin bir hissəsində qalır.

Üstəlik, həmin ərazilərdə müxtəlif ölkələrin layihələrinin həyata keçirilməsinə cəhdlər edilir. Avropa, Qərb vəziyyətin bu aspektlərinə diqqət vermək əvəzinə, olmayan "humanitar fəlakət", olmayan "blokada" və sair çərənləmələri önə çəkirlər. Görünən odur ki, Azərbaycan reallığı həmin qüvvələrin öz dillərində anlatmalıdır.

***- Azərbaycan-Ermənistan danışıqları hansı müstəvidə və kimin vasitəçiliyi ilə keçirilə bilər?***

- Rusiya çalışır ki, danışıqlar onun vasitəçiliyi ilə keçirilsin. O, özünü Cənubi Qafqazda mütləq qüvvə hesab edir və Qərb dünyasının bu areala müdaxilə etməsini istəmir, üstəlik, sülhyaratma prosesində fəallıq göstərmir. Avropa Birliyi bu məsələdə Rusiyanı üstələyir və daha təşəbbüskar çıxış edir. Ona görə də ABŞ daxil olmaqla, Avropada son zamanlar bir sıra təşəbbüsləri həyata keçiriblər. Məsələn, ABŞ-ın xarici işlər naziri Blinker Azərbaycanın, Ermənistanın xarici işlər nazirləri ilə əlaqələr qurub. Eləcə də Azərbaycanın Prezidenti ilə telefon əlaqəsi yaratdığı qeyd olundu. Belə bir təsəvvür yaranır ki, Qərb bununla həm Rusiya təsirinin güclənməsinin qarşısını almağa çalışır, həm də bölgədə möhkəm və dayanıqlı sülhün yaranmasına cəhdlər edir. Bu nöqteyi-nəzərdən Qərbin təklif etdiyi sülh variantında pozitiv məqamların olduğunu söyləmək mümkündür.

***- Necə hesab edirsiniz, Rusiya-Ukrayna müharibəsinin Qarabağ məsələsinin həllinə təsir imkanları nədir?***

- Aydın məsələdir ki, bölgədə bizim başımıza açılan bütün müsibətlərin baiskarı Rusiyadır. Azərbaycana qarşı erməni işğalı da Rusiyanın yaxından iştirakı ilə həyata keçirilmişdi. Xocalı soyqırımı törədilən zaman Rusiya silahından, alayından istifadə edilmişdi. İndi də ermənilər deyirlər ki, "Bizim Xocalı soyqırımında günahımız yoxdur, bunu rus əsgərləri ediblər".

Rusiya indi də istəyir ki, bölgədə mövcud olan problem "tüstülənən ocaq" kimi qalsın, tərəflər bir-biri ilə daim çəkişsinlər və lazım olanda "kömək" üçün Rusiyaya müraciət etsinlər. Beləliklə, Rusiya bu bölgədə öz təsirini qoruyub-saxlasın. Ona görə də Rusiyanın bölgədəki fəaliyyəti çox destruktivdir və bu ərazilərdən çıxarılması işin xeyrinə olardı. Bölgədə sülhyaratma prosesi Qərbin əlinə keçməkdədir.

Ukraynada müharibəyə gəlincə, bu savaş bütün dünyaya təsir göstərəcək və yeni dünya düzəninin yaranmasına səbəb olacaq. Ukrayna müharibəsində Rusiya məğlub olarsa, tamamilə fərqli çalarlara, fərqli göstəricilərə malik olan dünyanın doğuşunun şahidi olacağıq.

Daha çox humanist və insani xarakter daşıyan, sivilizasiyanın inkişaf meyilləri ilə şərtlənən yeni dünyanın yaranması Ukraynanın bu müharibədə qalib gəlməsi və ərazilərindən rus qoşunlarının çıxarılması ilə proseslər başlaya bilər. Şübhəsiz, bunun Qarabağla bağlı müsbət təsirləri də olacaq.

***- Bu gün Avropadan və Qərbdən Azərbaycana yönəlik bəzi "narahatlıqlar" Türkiyə-Azərbaycan münasibətlərinin daha da istiləşməsi, Türkiyənin regiondakı varlığı və Zəngəzur yolundan türk dünyasına açılan yolla əlaqələndirilir. Sizcə, bəzi güclərin Azərbaycanda toqquşan maraqları nə ilə bitə bilər?***

- Nə baş verməsindən asılı olmayaraq, Türkiyə-Azərbaycan münasibətləri dəyişməzdir və yüksələn xətt üzrə inkişaf edir. Kimlər bu əlaqələrdən qıcıqlanıb onu pozmağa çalışırsa, heç nəyə nail ola bilməyəcəklər. Türkiyə faktoru bu bölgədə münasibətlərin sağlamlaşmasına yönələn faktordur. Üstəlik, türk dünyasını səfərbər edən bir amildir və bunun əhəmiyyəti hər gün artır. Türk dünyasını birləşdirmək istiqamətində yeni cəhdlər özünü göstərir.

Ermənistana təsirlərə gəldikdə, Türkiyə bu istiqamətdə ciddi addımlar atır və erməniləri sülhyaratma prosesində səmimi iştirak etməyə, başqa dövlətlərin diqtəsi ilə çalışmamağa dəvət edir. Hər halda ermənilərin bir arzusu da Türkiyə ilə sərhədlərin açılması və Türkiyə ərazisindən istifadə edərək, dünyaya açılmaqdır. Ona görə də Türkiyənin bölgədəki roluna maneə olacaq heç nə ola bilməz. Türkiyə-Azərbaycan birliyi qardaşlıq, strateji birlikdir.

Bu əməkdaşlığı daha da inkişafı "Bir millət, iki dövlət" ideyasının bütün sahələrdə reallaşmasına perspektivlər açacaq.

✍ ***Tahirə Qafarlı***

# Qərbi Azərbaycanlıların Qayıdış Konsepsiyası hazırlanır

***Tarixi faktlar, sənədlər, xəritələr indiki Ermənistan ərazisinin Azərbaycan türklərinə, azərbaycanlılara məxsus olduğunu hər addımda, hər daş, kağız səhifəsində təsdiqləyir. Artıq bu torpaqlara Azərbaycanlıların Qayıdış Konsepsiyası hazırlanır, sistemləşdirilir. Məlumdur ki, "Qərbi Azərbaycanlıların İcması" İctimai Birliyi yaranıb və dövlət başçısı, Ali Baş Komandan bu tapşırığı verərkən məhz öz xalqının istəklərini, tələblərini nəzərə alıb, dəyərləndirib. Bu istiqamətdə "Həftə İçi"nə danışan Milli Məclisin deputatı, "Qərbi Azərbaycan İcması" İctimai Birliyinin sədr müavini Hikmət Babaoğlu mühüm faktlara diqqət çəkib.***



**Hikmət Babaoğlu,**
Milli Məclisin deputatı

## Müsahib

***- Tarixi torpaqlarımıza Qayıdış Konsepsiyası bu gün həmin ərazilərdə yaşayan erməniləri, onların havadarlarını hansı faktlar qarşısında qoyacaq, hansı mesajları verəcək?***

- Qərbi azərbaycanlıların öz tarixi torpaqlarına qayıtması ilə bağlı qaldırdığı iddialar, hər şeydən öncə Qərbi Azərbaycan ərazisində ermənilərin onilliklər boyu azərbaycanlılara qarşı törətdikləri cinayətlərini yenidən gündəmə gətirilməsinə səbəb oldu. Bütün dünyaya bir daha aydın oldu ki, bu gün Qərbi Azərbaycanda qurulan "Ermənistan dövləti" yerli əhaliyə qarşı aparılan cinayət və etnik təmizləmə sayəsində mümkün olub. Yerli əhalinin bu və ya digər üsullarla öz tarixi vətənlərindən qovulmasının nəticəsidir ki, bu gün Ermənistan həmin ərazilərində monoetnik dövlət yaratmağı bacarıb. Ancaq buna baxmayaraq ermənilər o torpaqlardan azərbaycanlıların izlərini silə bilməyiblər. Çünki Qərbi Azərbaycanın, yəni bugünkü Ermənistanda yerləşən 24 rayonunun və bütün şəhərlərinin hər birində Azərbaycan xalqının yaratdığı zəngin maddi-mədəni irs var. Qəbiristanlıqlardan tutmuş qalalara qədər, karvansaralardan tutmuş müqəddəs yerlə qədər, toponimlərdən tutmuş hidronimlərə, etnonimlərə qədər...Ermənilər nə qədər saxtalaşdırma aparsalar da, bu gün də o yerlərdə, indiki Ermənistan ərazisində Qərbi Azərbaycanlıların təzahür forması var. Ona görə də dünya yaranmış yeni reallıqlar kontekstində bir daha bu tarixi reallıqlarla üzləşməli oldu. Ermənilər bu gün həyəcan təbili çalaraq azərbaycanlıların öz tarixi vətənlərinə qayıtmaq hüququnu Ermənistana qarşı ərazi iddiası kimi təqdim etməyə çalışırlar. Düşünürəm ki, tamamilə yersiz, əsassız iddiadır.

***- Qərbi Azərbaycana Qayıdış Konsepsiyası haqqında Prezidentin tapşırığı, tövsiyələri ölkə ictimaiyyətini hansı tarixi bünövrələr üzərində dayanıb araşdırmalar aparmağa səslədi, tariximizə qayıdışımız üçün hansı şansı, imkan yaratdı?***

- Azərbaycan Prezidenti qeyd etdi ki, bizi Qarabağa, Zəngilana qaytaran tarixi yaddaşımızdır. Bu mənada Azərbaycan xalqı gələcək məqsədlərinə nail olmaq üçün mütləq indiki mərhələdə öz tarixi yaddaşını yeniləməlidir, milli yaddaşını bütövləşdirməlidir. Milli yaddaşımızın bütövlüyü isə bu gün Azərbaycanın siyasi sərhədlərindən kənarda qalan böyük etnosiyasi coğrafiyamızdakı tarixi yaddaşımızın bərpasından keçir. Bu bir millətin öz hədəflərinə yönəlməsi üçün vacib şərtdir. Ona görə də milli, tarixi yaddaşımızın böyük bir hissəsi Qərbi Azərbaycanla bağlıdır. Düşünürəm ki, Azərbaycan Prezidentinin qoyduğu bu məsələ cəmiyyətimizdə bir canlanma yaratdı. Milli Elmlər Akademiyasının Folklor, Tarix İnstitundan tutmuş, ayrı-ayrı tədqiqatçıların fəaliyyətinə və bütövlükdə Azərbaycanın ayrı-ayrı şəxslərinin müxtəlif sahələrdəki fəaliyyət istiqamətlərinə qədər hər birimizin məqsədlərini, istiqamətlərini müəyyənləşdirmiş oldu. Yəni məişət səviyyəsindən tutmuş, akademik səviyyəyə qədər bu gün Qərbi Azərbaycan məsələsi Azərbaycan cəmiyyətində müzakirə olunursa, bu özü tarixi yaddaşımıza qayıtmağımızın, tarixi yaddaşımızın təzələnməsinin ümumi kütləvi formalarından biridir. Amma əlbəttə ki, bu məsələnin kökü ciddi, akademik tədqiqatlara aparacaqdır və həmin tədqiqatlar vaxtaşırı Azərbayacan cəmiyyətinə təqdim olunacaq. Və beləlaiklə Qərbi Azərbaycan icması öz hədəflərinə doğru daha bir addım atmış olacaqdır.

***- Azərbaycanın öz tarixi gerçəkliyini, tarixi əraziləri, maddi-mədəni abidələri, torpağı üzərində haqqını qoruması üçün daxildə hansı siyasəti aparılmalıdır. Beynəlxalq məhkəmələrə müraciətlər hansı sənədlərə əsaslanmalıdır?***

- Məsələnin iki tərəfi var: mənəvi və hüquqi. Biz məsələnin tarixi tərəfini danışdıq. Mənəvi tərəfinə baxanda Qərbi Azərbaycanın müxtəlif coğrafiyalarında Azərbaycan incəsənətinin, musiqi estetikasının, poeziyasının, ədəbiyyatının, folklorunun formalaşmasında çoxlu nümunələri görmək olar. Bütün bu nümunələr öz adları ilə yenidən Azərbaycan cəmiyyətinə təqdim olunmalı və göstərilməlidir ki, bunlar Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın yaradıcılıq üsulu, nümunələridir. Bu, fərqlilik üçün yox, tarixi bütövlüyümüz üçün lazımdır. Hər bir azərbaycanlı bilməlidir ki, bizim tariximizin, mədəniyyətimizin bir parçası Qərbi Azərbaycandır. İkinci əsas məsələ hüquqla bağlıdır. Burda da beynəlxalq hüququn vaxtilə deportasiyalara məruz qalmış, öz vətənindən didərgin düşmüş insanlara tanıdıqları hüququn qərbi azərbaycanlılara da tətbiq olunması üçün mühüm bir mübarizə istiqaməti var. Bu da sistemli, ardıcıl şəkildə Avropaya, Avropanın insan hüquqlarının müdafiəsi ilə məşğul olan məhkəmələrinə daşınmalıdır ki, bizim qayıdışımız üçün də beynəlxalq ictimai rəy formalaşmış olsun.

***- Qərbi Azərbaycan ərazilərində olan tarixi abidələrin araşdırılması, ortaya çıxarılması və öz haqqını alması üçün hansı dəstəyə ehtiyac var? Bu prosesdə diaspora, lobbiçilik öz sözünü necə deməlidir?***

- Azərbaycan dövləti bununla bağlı dəfələrlə müəyyən məlumatlar səsləndirib. Hazırda maddi-mədəniyyət abidələrimizin dəqiq siyahıya alınması, reystrinin aparılması və Azərbaycan cəmiyətinə tanıdılması, eləcə də qorunması ilə bağlı BMT-nin müvafiq qurumlarına müraciət edilməsi məsələsi gündəmdədir. Çünki biz bilirik ki, İrəvan şəhərinin mərkəzində paytaxtın paytaxtı hesab olunan Təpəbaşı məhəlləsi abidəsində Azərbaycan xalqının irsinin son izləri silinməkdədir. Bu gün biz bu məsələ ilə bağlı həyəcan təbili çalmalıyıq ki, bu abidələr Azərbaycan xalqının mədəni irsi kimi YUNESKO, İSESKO və digər beynəlxalq qurumların hesabatlarına salınsın. Düşünürəm ki, bu istiqamətdə Azərbaycan cəmiyyəti bütövlükdə öz gücünü səfərbər etməlidir.

***- Yeni nəsil Azərbaycanın hazırda Ermənistan ərazisində qalan tarixi torpaqları haqqında nə dərəcədə əsaslı, elmi bilgilərə yiyələnmək imkanına malikdir? Azərbaycanın orta məktəblərində, eləcə də tarix dərsliklərində Qərbi Azərbaycan mövzusunun ardıcıl olaraq tədrisi yönündə görülən işləri necə dəyərləndirərdiniz?***

- Düşünürəm ki, bunu iki istiqamətdə qiymətləndirməliyik. Birincisi, Qərbi Azərbaycan kökənli olan vətəndaşların ailə-məişət zəminində, ailə-vərəsəliyi kontekstində Qərbi Azərbaycan mədəniyyətinin, musiqisinin, mətbəxinin gənc nəslə ötürdükləri bilgilərdir. Amma hazırki mərhələdə biz milli məqsəd kimi Qərbi Azərbaycana qayıdışı nəzərdə turuqsa, bu daha kütləvi olmalıdır. Qərbi Azərbaycan tarix, ədəbiyyat dərsliklərindən tutmuş, digər bütün akademik səviyyələrdə təbliğ olunmalıdır. Biz bilirik ki, tarix dərsliklərində 1988-ci ildə qərbi azərbaycanlıların öz vətənlərindən qovulması ilə bağlı məlumatlar verilib. Düşünürəm ki, bu daha geniş və kütləvi şəkildə olmalıdır. Çünki biz tarixi, milli yaddaşımızı bütövləşdirməliyik ki, ümumi hədəflərimizə daha tez çataq.

> *Ermənilər azərbaycanlıların öz tarixi vətənlərinə qayıtmaq hüququnu Ermənistana qarşı ərazi iddiası kimi təqdim etməyə çalışırlar*

***- "Qərbi Azərbaycan muzey -şəhəri" yaradılarsa ümumi işimizə hansı töhfələri verə bilər?***

- Əlbəttə ki, Qərbi Azərbaycanla bağlı "muzey-şəhər" düzəltmək mümkündür. Amma bu bir qədər mürəkkəb, çətin və vaxt aparan işdir. O "şəhərdə" bizim tarixi abidələrin nümunələrini maket şəklində təqdim etmək olar və bunun etnosiyasi coğrafiya, koorrdinatlar üzrə rayonlaşdırmaq da olar. Amma bu o qədər dərin prosesdir ki, uzun müddətli vaxt aparacaq. Çünki son 100 ildən əvvəlki dövrə də qayıtmalıyıq. Tutaq ki, "Ermənistan respublikası" yaradılmamışdan öncəki, rus işğalı dövründə Qərbi Azərbaycanın etnosiyasi və etnomədəni xəritəsi üzə çıxarılmalıdır və orda olan obyektlərin maketini hazırlamalıyıq. İzi silinin qalaların, məscidlrin maketlərini hazırlamalıyıq. Bunu tarixi instruksiyalar, şəkillər əsasında yaratmaq olar. Əlbəttə, beləliklə virtual Qərbi Azərbaycan yaratmaq mümkündür. Amma bu, yenə də tarixi faktlarla, akademik göstəricilərlə həyata keçirilməlidir. Və bu maketdə o yerlərin təbiiəti də bədii əsərlərdən götürüləək əksini tapa bilər. Ona görə də işlər çoxdur və düşünürəm ki, ümumilikdə o işlərin öhtəsindən gəlmək üçün səfərbər olmalıyıq.

✍ ***Tahirə Qafarlı***

# İşğaldan azad edilmiş ərazilərimizdə ekoloji terror

## Layihə

***İşğaldan azad edilmiş ərazilərimizdəki qızıl, gümüş və mis yataqlarının ehtiyatı açıqlanıb. Geoloji Kəşfiyyat Agentliyi İdarə Heyətinin sədri Əli Əliyev jurnalistlər üçün keçirilən brifinqdə bildirib ki, "Söyüdlü" qızıl yatağında 112,5 ton resurs olub. O qeyd edib ki, "Vejnəli"də 6,5 ton qızıl, 10,75 ton gümüş, 4 min tona yaxın mis, "Dəmirli" yatağında 457 min ton mis, "Qızıbulaq" yatağında 13,7 ton qızıl olub: "Lakin işğalçı rejim tərəfindən istismar edilmiş həcmlər haqqında bu gün konkret rəqəm demək doğru olmaz. Bu rəqəmlər hazırda hesablama mərhələsindədir. İstismarla bağlı dövlətin müvafiq qurumları tərəfindən beynəlxalq təşkilatlara müraciət hazırlanıb".***

*Dünya ölkələri ekoloji tarazlığın qorunmasında maraqlı olduqlarını göstərməyə çalışsalar da, onların belə bir məsələyə ciddi reaksiya verməməsi təəssüf doğurur*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi



Qurum rəsmisi, həmçinin işğal dövründə Azərbaycanın "Söyüdlü", "Vejnəli", "Dəmirli" və "Qızılbulaq" yataqlarının qanunsuz istismarı ilə məşğul olan xarici şirkətlərin adlarını da açıqlayıb. O bildirib ki, sözügedən şirkətlər "Kanadanın "Sterlite Gold" LTD və "First Dynesty Mines"; İsveçrənin "Base Metals", "Vallex Group"; Rusiyanın "Geopro Mayninq Gold Company"; İsveç və Lixtenşteynli sahibkarların ortaq olduğu Ermənistanın "Armenian Copper Programme"; ABŞ-ın "Global Gold" və Hindistanın "Vedanta Resourcess" şirkətləridir.

Yeri gəlmişkən, Vətən müharibəsində ağır məğlubiyyətə düçar olan Ermənistan bu gün də Xankəndidə və ətraf ərazilərdə Azərbaycanın sərvətlərini talamaqda davam edir. Belə ki, "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarında ermənilər tərəfindən qanunsuz istismar həyata keçirilir. Azərbaycanlı eko fəalların bu qeyri-qanuni istismarın dayandırılmasına qarşı başlatdıqları etiraz aksiyaları isə 40 gündən çoxdur ki, davam edir. Amma dünya ölkələri bu məsələyə hələ də ciddi reaksiya vermirlər.

Xatırladaq ki, işğal dövründə Azərbaycan dəfələrlə Ermənistanın əməlləri haqqında beynəlxalq ictimaiyyət qarşısında məsələ qaldırsa da, bunun müqabilində həmişəki kimi Ermənistana yetərli təzyiq olmayıb. BMT Baş Assambleyası tərəfindən hələ 2006-cı ildə qəbul edilmiş "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı Qətnamədə işğal altında olan Azərbaycan torpaqlarında törədilmiş yanğınların regionun ekoloji təhlükəsizliyinə təsirinin qiymətləndirilməsi məsələsi qaldırılmışdı. Həmçinin, 2016-cı ildə Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul olunan Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi ilə bağlı 2085 nömrəli qətnamədə Ermənistan silahlı qüvvələrinin sözügedən regiondan dərhal çıxarılması, müstəqil mühəndis və hidroloqlar tərəfindən yerində təhqiqat aparılmasının təmin edilməsi tələb olunmuşdu. Ancaq bu beynəlxalq hüquqi çağırışlar cavabsız qaldı.

■ **Mövzu ilə bağlı bizimlə həmsöhbət olan "Ekostil-Azərbaycan" Təbiəti Mühafizə İctimai Birliyinin sədri, ekoloq, dosent Elman Yusifov deyib ki, dünya ölkələrinin Ermənistanın Azərbaycanın ekologiyasına vurduğu zərərlə bağlı məsələdə susqunluq nümayiş etdirməsi təəssüf doğurur: "Əslində Azərbaycana qarşı həmişə ikili standartlardan yanaşılıb.** Dünya ölkələri ekoloji tarazlığın qorunmasında maraqlı olduqlarını göstərməyə çalışsalar da, onların belə bir məsələyə ciddi reaksiya verməməsi təəssüf doğurur. Görünən odur ki, erməni maraqları onlara yaxın olduğundan ermənilərin tərəfini saxlayırlar. Təbii ki, bu tamamilə ədalətsiz bir münasibətdir. Azərbaycan müstəqil bir dövlətdir və Birləşmiş Millətlər Təşkilatı tərəfindən onun ərazi bütövlüyü tanınıb. Həmin istismara məruz qalan ərazilər də Azərbaycan torpaqlarıdır. Orada qızıl mədənləri vardır. Bu bir tərəfdən itirilmiş gəlirdir. Yəni, Azərbaycanın ərazisində onun sərvəti talanır, həmin sərvət bilinmir hara gedir. Digər tərəfdən, orada ekoloji qaydalar çox ciddi şəkildə qorunmalıdır. Çünki qızıl sənayesi çox çirkli bir sənayedir. Və bu istiqamətdə olduqca sərt ekoloji tələblər vardır. Təsəvvür edin ki, təxminən 1 kq qızılın əldə edilməsi üçün təqribən 1 milyon ton torpaq emal edilməlidir. Həmin ərazi də Qarabağ yaylasıdır və Kiçik Qafqaz bioloji zənginliyinə görə, Böyük Qafqazdan qat-qat zəngindir. Onun yaşı böyükdür, təxminən, 50 milyon yaşlıdır. Həmin qızılın üzərində də dünyanın çox nadir, heç bir yerində rast gəlinməyən, nəsli kəsilməkdə olan bitkilər var.

Ona görə də belə bir sənayeyə başlamazdan əvvəl ərazinin monitorinqi aparılır, həmin ərazidə nadir bitkilər müəyyən edilir, onlar daha təhlükəsiz yerə, yaxud da milli parklara köçürülür. Eyni zamanda, bu ərazilərdə torpaq eroziyaya uğrayır. Məsələn, Azərbaycan ərazisindəki mədənlərdə 1 ton torpağı emal etməklə 2 qram qızıl əldə etmək olur. Bu o deməkdir ki, minlərlə ton torpaq qanunsuz istismar edilir, həmin torpağın hara daşındığı da məlum deyil. Bundan başqa qızıl sənayesində istehsala başlamazdan öncə ətraf mühitə təsirin qiymətləndirilməsi sənədi hazırlanır. Bu sənədlərin heç biri yoxdur və ermənilər təbii sərvətlərimizi kortəbii şəkildə istismar edirlər. Bu tamamilə ağlasığmaz hərəkətdir və insan təəccüb qalır ki, dünya ictimaiyyəti buna necə göz yumur?".



**Elman Yusifov,**
"Ekostil-Azərbaycan" Təbiəti Mühafizə İctimai Birliyinin sədri, ekoloq, dosent

■ **Məsələ ilə bağlı qəzetimizə açıqlama verən Konstitusiya Araşdırmaları Fondunun prezidenti, hüquqşünas Əliməmməd Nuriyev bildirib ki, Azərbaycanın ərazi bütövlüyü bütün dövlətlər tərəfindən tanınıb:** "Azərbaycan ərazisində olan yerüstü və yeraltı sərvətər Azərbaycan xalqına məxsusdur və dövlətin mülkiyyətidir. Bu sərvətlərdən yalnız dövlətin xüsusi icazəsi ilə istifadə etmək olar. Şübhəsiz ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda olan ərazilər də Azərbaycanın tərkib hissəsidir və bu ərazilərdəki təbii sərvətlər də dövlətin mülkiyyətidir. Əlbəttə ki, 44 günlük müharibədən sonra Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan işğalda olan ərazilərinin böyük hissəsinin düşməndən azad etdi. Amma bəzi ərazilər var ki, onlar hələlik Rusiya sülhməramlılarının məsuliyyət zonasındadır. Sülhməramlıların əsas vəzifələrindən biri də ondan ibarətdir ki, onların məsuliyyət zonasına daxil olan ərazilərdə təbii sərvətlərin qanunsuz talanmasına imkan verməsin. Biz görürük ki, torpaqlarımız işğal olunandan bu günə qədər Qarabağdakı təbii sərvətlərimiz talan edilib. Bu məsələdə erməni şirkətləri ilə yanaşı beynəlxalq şirkətlər də yaxından iştirak edib. Bir sıra xarici şirkətlər işğal altında olmuş Azərbaycan torpaqlarının talanmasında fəallıq göstəriblər. O şirkətlər qanunsuz müqavilə imzalayaraq, o ərazidə təbii sərvətlərimizi talamaqla məşğul olublar. İndi o şirkətlər Azərbaycana vurduqları ziyanın ödənişini etməlidirlər. Həmin şirkətlər nəzərə almalıdır ki, onlar Azərbaycanın mülkiyyət hüququna toxunublar".

Ekspert vurğulayıb ki, erməni və onların havadarları hazırda da Qarabağda təbii sərvətlərimizi talan etməkdə davam edirlər: "Bildiyiniz kimi, artıq 40 gündən  çoxdur ki, vətəndaş cəmiyyətinin nümayəndələri, ekofəallar çox mühüm aksiya həyata keçirirlər. Onlar Azərbaycanın təbii sərvətlərinin qanunsuz talanmasına etiraz edir.

"Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarında ermənilər tərəfindən qanunsuz istismar həyata keçirilir. Oradan əldə olunan gəlirlər isə ayrı-ayrı şəxslərin hesabına köçürülür. Bununla yanaşı, ətraf mühitə çox ciddi ziyan dəyib. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və İqtisadiyyat Nazirliyinin monitorinq qrupu faydalı qazıntı yataqlarımıza buraxılmadığı üçün aksiya davam etməkdədir. Müvafiq dövlət qurumlarımızın monitorinqinə şərait yaradılmırsa, deməli, təbii resurslarımızın qanunsuz talanması baş verir və bu, Vardanyan kimi mafioz qruplar tərəfindən həyata keçirilir. Ərazilərimizdə olan təbii sərvətlər Konstitusiyamıza görə xalqındır. Həmin ərazilərdə 200-ə qədər irili-xırdalı yataqlarımız var.

Etirazçılar aksiya vasitəsilə təbii sərvətlərimizin qanunsuz istismarına son qoyulmasına çağırışlar edirlər. Çünki hər şey qanuna əsasən tənzimlənməlidir. Həmin ərazilər də sülhməramlıların məsuliyyət zonasına daxil olduğu üçün onlar torpaqlarımızda qanunsuz fəaliyyətin qarşısını almalıdırlar. Son 30 il ərzində ermənilər torpaqlarımızdakı yataqları qanunsuz istismar ediblər. Bu ərazilərdə qanunsuz hərəkətlərə yol vermiş şəxslərlə bağlı daha geniş miqyasda hərəkətə keçilməlidir. Azərbaycan Dövlətinə həm yerli, həm beynəlxalq qanunvericilik yetəri qədər imkan verir ki, baş verən ekoloji terrorla bağlı beynəlxalq məhkəmələrdə iddialar qaldırsın. Azərbaycanın bu şirkərlərin istismarı ilə bağlı müxtəlif şirkətlərlə müqavilələri var. Hesab edirəm ki, həmin şirkətlər də tez  bir zamanda hərəkətə keçməlidirlər və beynəlxalq təşkilatlara müraciət etməlidirlər. Onların buna tam hüquqları çatır, haqlarını tələb etməlidirlər. Bu istiqamətdə müsbət qərarlar əldə edə bilərlər".

**✍ Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

---

## Layihə



# Uşaqları idmana hansı yaşda cəlb edək?!

***Müasir uşaqlar əvvəlki dövrlərin uşaqları ilə müqayisədə daha az hərəkətlidirlər. Belə ki, əvvəllər uşaqlar boş vaxtlarını daha çox "Bənövşə", "Gizlənqac", "İp atlama", "Çiləmə" kimi oyunları oynamaqla keçirsələr də, indi vəziyyət tamamilə dəyişib. Uşaq və yeniyetmələr zamanlarının əsas hissəsini telefon, planşet, televizor, kompüter arxasında keçirirlər. Demək olar ki, oynadıqları oyunlar da virtual oyunlardır.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

Bu isə onların zehinlərini yorur, düşünmə və görmə qabiliyyətlərini zəiflədir, insan orqanizmi üçün ciddi təhlükə yaradacaq şüalanmaya məruz qoyur. Bir sözlə, belə oyunlar uşaqların sağlamlıqlarını əlindən alır. Eyni zamanda, bunun nəticəsidir ki, son zamanlar uşaqlarda piylənmə də müşahidə olunur. Uşağın orqanizmi lazım olan yükü ala bilmədikdə hərəkətsizlikdən bədəndə piy qatı yığılmağa başlayır. Mütəxəssislər hesab edirlər ki, bunun qarşısını valideynlər ya idmanla, ya da müxtəlif hərəkətli uşaq oyunları ilə ala bilərlər.

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən psixoloq Vəfa Rəşidova bildirib ki, idman uşaqlar üçün olduqca vacibdir. O, uşağın fiziki və əqli inkişafına kömək edir.** Əgər uşaq fiziki cəhətdən zəifdirsə, tez yorulur və xəstələnirsə, idman onun bədənini möhkəmləndirəcək, immunitetini artıracaq: "İdmana nə qədər tez başlanarsa, bir o qədər faydalı olar. İdman insanın beyninin və zehninin inkişafına müsbət təsir göstərir və ruh yüksəkliyi yaradır. Lakin uşaqları çox erkən yaşda idmana göndərmək düzgün hesab olunmur. Bir çox hallarda uşaq idmana hazır olmadıqda valideyn uşağı zorla idmana məcbur edir. Məcburiyyətdən edilən idmanın isə uşağa heç bir faydası yoxdur. Əksinə, valideynlər uşaqlarına idmanın faydaları barədə məlumat verməli və uşaq bunu özlüyündə dərk etməlidir. Bəzən uşaqların hansı idmanın nəyə faydalı olduğu haqqında informasiyası da olmur. Onlar idmanın faydalı olduğunu eşitsələr də, onun nəyə faydalı olduğunu, nə üçün faydalı olduğunu dərk etmirlər. Məcburiyyət və valideyn basqısından sonra isə uşaqlarda idmana qarşı həvəs ölür. İnsan psixologiyası belə bir funksiyaya malikdir ki, zor, təpki, basqı altında olan bir şeyə qarşı onda aqressiya və mənfi assosiasiya yaranır. Bu isə özünü bütün yaş dövrlərində göstərə bilər. Əslində, müşahidələr göstərir ki, bu gün gənclər və yeniyetmələrin bir çoxu idmandan, sağlam həyat tərzindən uzaqdır. Bunun kökündə də ailədən gələn təzyiq dayanır. Müqayisə üçün deyə bilərəm ki, qonşu ölkələrdə valideynlər uşaqları çox kiçik yaşlardan üzgüçülüyə və digər idman növlərinə yazdırırlar. Lakin təbii ki, bu da yenə öz növbəsində mərhələlərlə həyata keçirilməlidir. Kor-koranə şəkildə etmək də düzgün deyil. Əslində uşağın xarakterinə uyğun olaraq idman növü seçilməlidir. Suyu sevməyən bir uşağı üzgüçülüyə göndərməyin heç bir mənası yoxdur. 3-4 yaşından etibarən uşağı idmana göndərmək məqsədəuyğun hesab olunur. Bu isə peşəkar idman müəllimləri tərəfindən həyata keçirilməlidir. Ola bilər ki, uşağın ürəyində və digər daxili orqanlarında ciddi bir problem var. Bu zaman onun sərt idman növləri ilə məşğul olması düzgün hesab olunmur və bu idman onun sağlamlığına faydadan çox ziyan vura bilər".

Ekspert vurğulayıb ki, idman hiperaktiv uşaqlara xüsusilə müsbət təsir göstərir: "Hiperaktiv uşaqlar daim fəaliyyətdədirlər və aktiv hərəkətlər nümayiş etdirirlər. Əslində həmin enerji idmana sərf olunarsa, uşağa daha faydalı ola bilər. Bəzən valideynlər idmanın uşaqlara ziyan vura biləcəyini düşünürlər. Bu zaman isə məsləhətdir ki, onlar uşaqlarını çox da çətin olmayan yoqaya yönləndirsinlər. Bu, xüsusilə aqressiv uşaqlara aiddir. Onların cüdo, karate kimi idman növləri ilə məşğul olması düzgün hesab olunmur. İdman uşaqların tərbiyə olunmasında xüsusilə mühüm rol oynayır. Onlarda özünəinam formalaşdırır. Emosional yaşın bərpa olunmasında isə idman xüsusilə mühüm rol oynayır. Bəzən uşaqlar yaşından kiçik hərəkətlər sərgiləyirlər ki, psixologiyada buna emosional yaş pozğunluğu deyilir. Bu, adətən yeniyetmə dövründə baş verən bir prosesdir və idmanla məşğul olmaq onlarda möhkəmlik və ciddi xarakter formalaşdırır.

İdmanda baş verən proseslər zamanı uşaqlar bərkiməyi öyrənirlər. Valideynlər həssas olduğu üçün bu zaman uşaqları üçün narahat ola bilərlər. Lakin bu, onların şəxsiyyət kimi formalaşmasında da mühüm rol oynayır. Ümumiyyətlə, psixologiyada belə bir şey var ki, insan həyatında bir boşluq varsa, o boşluq əvəzedici bir şeylə mütləq doldurulmalıdır. Bu baxımdan idman əvəzolunmazdır. Nəticədə, uşaqlarda olan enerji və güc müsbət tərəfə yönlənmiş olur".

*Uşaqları çox erkən yaşda idmana göndərmək düzgün hesab olunmur*

Bu gün uşaqların texnoloji vasitələrdən asılılığı, nəticədə az hərəkətli  olması barədə fikirlərə münasibət bildirən pixoloq Elnur Rüstəmov isə hesab edir ki, texnologiyanın inkişafının uşaqlar üçün həm mənfi, həm də müsbət tərəfləri var: "Biz keçmişlə bu günü müqayisə etsək, nəinki uşaq müstəvisində, ümumiyyətlə, bütün müstəvilərdə görərik ki, çox böyük dəyişikliklər var. Biz informasiya əsrində yaşayırıq. İnsanlar hər şeyi tez əldə etməyə çalışırlar. Diqqət etsəniz görərsiniz ki, uşaq oyunları da daha çox internet, müasir texnologiyalar üzərindən olan oyunlardır. Bütün bunlar bu dövrün tələbləri ilə bağlı bir prosesdir. O insan uğur qazanır ki, o dövrlə ayaqlaşır. Bir söz var ki, uşaqları dövrlərinə uyğun tərbiyə etmək lazımdır. Uşaqlar ata-analarından çox zəmanəyə oxşarlar. Yəni o dövrdə də elə olub, bu dövrdə də elədir. Əgər dünənə qədər bizim oyunlarımız və yaxud da oyuncaqlarımız özümüzün düzəltdiyi taxtadan olurdusa və onun üzərindən biz oynayıb uşaqlığımızı keçirirdiksə, bu gün hər şey internet, texnologiya üzərindəndir. Hətta rəngləmələr belə internet üzərindəndir. Bunun da uşaqlar üçün həm müsbət, həm də mənfi tərəfləri var. Müsbət tərəfi odur ki, burada seçimlər çox, imkanlar geniş olur. Mənfi tərəfi isə odur ki, seçimin çox olması uşaqlarda müəyyən qədər fikir ayrılığı və yaxud aqressiv davranışa, yanaşmalara rəvac verir. 10-15 il öncə ilə müqayisə etsək, indi nevroloji, psixoloji, fiziksəl problemlərin daha çox olduğunu görərik. Bu da texnologiyanın, ekologiyanın, qidaların  yaratmış olduğu problemlərdən biridir. Yəni bütün müstəvilərdə biz bu prosesi görürük. Uşaqlarla oyun prosesində valideynlər uşağın internetdə, planşetdə vaxt keçirdiyindən şikayətlənir. Valideyn uşağına zaman ayırmalıdır. Biz demirik ki, səhərdən axşamadək uşağı ilə oynasın. İşləyirlər, qayğılar da çoxdur. Ancaq valideyn uşağı ilə yarım saatda olsa, faydalı zaman keçirməlidir. Yəni uşağı ilə emosional bir ünsiyyət, təmas qurmalıdır. Valideynlə övlad arasında emosional bağ yaranmalıdır. Hər bir ailədə problem olur. Ancaq bu mübahisə uşağın yanında edilməməlidir. Ata və ana arasında mübahisə olandan sonra uşaqda qorxu yaranır. Bir az keçir o qorxu çevrilib uşağın nitqində problem yaradır, çeçələməsinə gətirib çıxarır. Yaxud uşaqda başqa psixoloji rahatsızlıqlara səbəb olur".

Onun sözlərinə görə, ailələrin daha çox insan faktoruna önəm verməlidirlər: "Məsələn, ailələrdə uşaq sayı azdır, maksimum 3 uşaq olur. Əlbəttə, uşaq az olduğu üçün onlardan gözlədiklərimiz də çox olur. Bir uşağımız olur, istəyirik ki, yaxşı alim, idmançı, gözəl insan olsun. Uşaqdan bütün sahələrdə uğur qazanmasını istəyirik. Bu - mümkün deyil. Nəticədə o uşaqda özünə güvən aşağı düşür, uşaq özünü cəmiyyətdə tapa, gələcəkdə özünü bir şəxsiyyət, insan kimi formalaşdıra bilmir. Yəni ailələr daha çox insan faktoruna önəm verməlidirlər. Tutaq ki, uşağa bir paltar, bir oyuncağı az ala bilərəm. Ancaq uşağımın psixoloji sağlamlığı yerində olsun. Bu çox vacib bir məqamdır. Psixi sağlamlıq fiziki sağlamlıqdan öndədir. Sabah vəziyyət bundan da pis olacaq. Yəni sabah informasiyalar bundan da artıq olacaq. İnformasiyalar artdıqca insanlar bir-birindən uzaqlaşır, özgələşmə artır, inam azalır. Bu gün sən ünsiyyət qurduğun insana inana bilmirsən.

Düşünürsən ki, bu səmimidir, yoxsa səmimi deyil. Baxın, qohumlar arasında bağ nə qədər itib. Bu gün bağ yalnız ailə içindədir: mən və mənim uşaqlarım. Sabah valideynlə övlad arasında da bu bağ qırıla bilər. Buna görə də bizim milli mənəvi dəyərlər üzərində gələcəyin strategiyası qurulmalıdır. Biz milli-mənəvi dəyərləri, valideyn övlad arasında, nəsillər arasında bağları genişləndirməliyik".

**✍ Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Fransız reallığı

***Bu** gün Azərbaycanın Ermənistanla münasibətlərinin normallaşdırılmasında qarşısına çıxan ən böyük maneələrdən biri sadə ermənidən daha çox ermənipərəst olan Fransadır, daha doğrusu bu dövlətin prezidenti Emmanuel Makron. Ayda bir dəfə fransız ermənilərlə görüşən, Azərbaycanın daxili məsələsi olan Qarabağ problemini müzakirəyə çıxarmaqla siyasi xal qazanmağa cəhd edən, "ermənilərin hüquqlarının, azadlıqlarının müdafiəçisi" obrazını yaratmağa çalışan Makron əslində öz xalqına qənim kəsilib desək, yanılmarıq. Tarixi keçmişi soyqırım ləkələri ilə dolu olan Fransa Prezidenti milyonlarla günahsız insanın ölümünə səbəb olduqlarına görə üzr istəməyi belə özünə rəva görmür, peniya islahatlarına etiraz edənləri polis zorakılığı, dəyənəklərlə şikəst edir, daha sonra isə "hüquq və azadlıqlar"dan danışır. Faktlara nəzər yetirək.*





## Təhlil

Bir neçə gün əvvəl Fransada Emmanuel Makronun pensiya yaşının 62-dən 64-ə qaldırılması ilə bağlı qanun layihəsi ölkəni xaosa sürüklədi. Buna etiraz olaraq baş tutan yürüşdə bir milyondan çox insan iştirak edib. Etirazlar ictimai nəqliyyat, təhsil və dövlət xidmətlərini iflic edib. Parisdə Bastiliya meydanında bəzi nümayişçilər polislə toqquşub. Aktivistlər şüşə, zibil qutuları və tüstü bombaları atarkən, polis gözyaşardıcı qazla cavab verib. Həmkarlar İttifaqları Fransadakı etirazlarda iki milyondan çox, yalnız Parisdə 400 min insanın iştirak etdiyini və növbəti böyük etirazın yanvarın 31-də keçirildiyini açıqladı.

**Əsas məsələ etirazçılara qarşı münasibətdə polisin onlara tutduğu divandır. Bu fakt aksiyalarda şikəst qalan İvan adlı gəncin yaşadıqlarının timsalında daha aydın görünür.**

İvan Parisdə etiraz yürüşünün fotolarını çəkirdi. Nümayiş sakit görünsə də, sonra polis peyda olub. Heç bir zorakılığa yol verməsə də, qəfildən ayaqları arasında polis dəyənəyi ilə gözlənilməz zərbə alıb. Bu zərbə onu bir xayadan məhrum edib. O, şikayət ərizəsi yazmaq qərarına gəlib: "Polis tərəfindən zorakılığa məruz qalan ilk şəxs olmadığım üçün bunu dayandırmalıyıq. Mənim bir üstünlüyüm var: bugünkü səhnə lentə alınıb", - 26 yaşlı gənc Le Fiqaro müxbiri ilə söhbətində deyib. "Hər şey çox tez baş verdi" deyən gənc xatırlayır. "Güclü bir səs gəldi və birdən gördüm ki, polis hücuma keçib. Hadisələrin mərkəzindən uzaqda idim. Etirazçılardan polisə taxta lövhələr atmaqda şübhəli bilinən nümayişçinin həbsinə nail olmaq istəyirdilər. Hadisə yerindən çəkilən görüntülərə görə, polisin hücumunun hədəfi məhz o olub. Amma nədənsə iki polis əməkdaşı digərlərindən daha irəli gedib və İvanın qasıq nahiyəsinə ağır zərbələr endiriblər.Niyə İvan S.-ni seçdilər?O başa düşmür və bizim bildiyimiz faktların heç bir kombinasiyası bunu izah edə bilməz. Polis onu tutur və yolun zolağında arxası üstə atır. İkinci polis köməyə gəlir. "O, qarşıma çıxdı və eyni zamanda dəyənəklə çənəmə güclü zərbə endirdi" - İvan deyir. "Səhnəni "AB7 Media" lentə alıb və BFMTV-də canlı yayımlayıb. Zərbədən sonra polis İvana kömək etmədən geri çəkilib. O, ətrafdakılardan ilkin tibbi yardım alır. İndi o, əlil arabasındadır". Gəncin vəkili Lüsi Simon bildirir ki, o, şikəstliklə nəticələnən qəsdən zorakılıqdan şikayət edir: "O, əlində kamera ilə yerdə uzanmışdı ki, polis məmuru bilərəkdən onun cinsi orqanına nişan alıb. Sadizmlə bərabər olan zorakılığa haqq qazandırmaq olmaz, bu, qəbuledilməzdir və geri dönməz nəticələrə malikdir".

**Ən dəhşətlisi isə Makronun polislərinin və hakimiyyət orqanlarının zorakılıq nəticəsində əlil qalan bu cavan oğlanın şikayətinə bianə münasibətidir. Paris prefekturası polisin bu zorakılığına, bir gənci ömürlük şikəst etməsinə haqq qazandırır. Daxili araşdırma aparıldığını söyləyərək məsuliyyətdən yayınır. Hökumət sözçüsü Olivier Veran, şəkillərə baxdıqdan sonra şikəstliyin səbəblərini şübhə altına alan bəyanat verir. Bu sadəcə illər ərzində vəhşicəsinə dağıdılan dinc etirazlarda həlak olan, yaralanan, şikəst qalan insanlardan birinin üzləşdiyi münasibət və acı taleyidir.**

Öz xalqının gələcəyi sayılan gəncini belə şikəst etməkdən çəkinməyən Makron iqtidarının ölkəsinin keçmiş müstəmləkələrindəki milyonlarla insanı hansı əzab və işgəncə ilə qətlə yetirməsinə münasibəti isə ikiqat utancdır. Bir müddət əvvəl Makron Le Point qəzetinə verdiyi müsahibədə ölkəsinin müstəmləkə keçmişinə görə Əlcəzairdən üzr istəməyəcəyini açıq şəkildə bəyan etdi. "Mən üzr istəməyə ehtiyac görmürəm, əsas o deyil, çünki bu jest bütün əlaqələri qıra bilər. Ən pisi isə üzr istəməyimiz və sonra ayrı yollarımıza getdiyimizi söyləmək olardı", - Fransa prezidenti deyib. Onun fikrincə, tarixi yaddaş üçün hesablaşmaq deyil, keçmişdə "təsvir edilməyən, anlaşılmaz, həll olunmayan və bəlkə də bağışlanmaz" nəyinsə olduğunu etiraf etmək vacibdir. Bəli, Makronun anlayşında günahsız milyonların qətli sadəcə "anlaşılmaz" olaydır. Elə Fransa vətəndaşı İvanın polis zorakılığı nəticəsində qəsdən şikəst edilməsi kimi...

Makronun siyasi obrazı ilə bağlı daha bir ziddiyyətli məqamı yada salaq. Seçkilərdə səs qazanmaq üçün o, daha əvvəl 1957-ci ildə Əlcəzair Milli Qurtuluş Müharibəsi zamanı riyaziyyatçı Maurice Auden və hüquqşünas Əli Boumangelin öldürülməsinə görə Fransanın məsuliyyətini etiraf etmişdi. O, həmçinin 1961-ci il oktyabrın 17-də Parisdə əlcəzairlilərin etiraz aksiyasının yatırılması zamanı fransız polisinin hərəkətlərini bağışlanmaz adlandırmışdı. Fransa lideri həmçinin tarixçi Benjamin Store-a "Müstəmləkəçilik və Əlcəzair Müharibəsi Yaddaşı" adlı məruzə hazırlamağı tapşırmışdı. Lakin sonradan yenidən siyasi maraqlar və iqtidarını itirmək qorxusuna yenilərək siyasi "əqidəsini" dəyişdi, bütün bu baş verənlərə görə üzr istəməkdən imtina etdi. Buna cəsarəti çatmadı. Çünki o, hələ də Fransa parlamentində 60 yeri saxlayan sağçılarla ittifaqların buxovundadır. Makron üzr istəməkdən qorxur və tarazlıq yaratmağa çalışır. O, sağçılarla ittifaqları davam etdirməlidir, çünki partiyası son parlament seçkilərində mütləq səs çoxluğu qazana bilmədi və sağçıların səsləri olmasa, bir dənə də olsun qanun layihəsini qəbul edə bilməyəcək. Həmçinin millətçi sağlar "üzr" addımının ardınca gələ biləcək milyardlarla təzminat məsələsinə görə Makronu siyasi cəhətdən "edam kürsüsünə" də çıxaracaqdırlar. Bu səbəbdəndir ki, Makron Fransada məskunlaşmış millətçi, terrorçu, azərbaycanlılara, türklərə qarşı soyqırım həyata keçirən erməniləri dəstəkləyir. Çünki onlar Makronun əqidədaşlarıdırlar...

**Maraqlısı odur ki, bu gün hətta fransız siyasətçilər belə Makronun psixi pozğunluğunun araşdırılmasını tələb edir. Onun açıqlamaları və hərəkətləri böyük narahatlıq doğurur. Belə ki, bir müddət əvvəl ABŞ-dan qayıdan təyyarənin göyərtəsində Fransa prezidenti deyib: "İki həftə əvvəl ciddi əsəb böhranı keçirdim. Bütün nazirlərin, eləcə də hökumət başçısının işini görmüşəm". Prezidentliyə keçmiş namizəd Fransua Asselino qeyd edib ki, əgər bu doğrudursa, tez və qətiyyətli addımlar atılmalıdır: "Birincisi, ona görə ki, belə bir bəyanat hər kəsə aydın olan dərin siyasi böhranı əks etdirir.**

Makron ölkə üçün dağıdıcı siyasət yürüdür və onun psixi sağlamlıq problemləri varsa, o zaman nüvə silahı buraxmaq üçün kodun belə bir şəxsdə olması böyük təhlükədir. Üstəlik, prezident nazirləri və ya baş naziri əvəz etmək üçün deyil, ölkəni idarə etmək üçün seçilib: bu, sadəcə olaraq konstitusiyaya ziddir. Makronun dünya çempionatındakı hərəkətlərinə və sosial şəbəkələrdə yayılan fotolara heç kim haqq qazandıra bilməz. Açığı, Makronun psixoloji problemləri var".

Buradan çıxış edən fransız mətbuatı yazır:

"Ölkənin daxili siyasətində uğur qazanan hər kəs öz xarici mövqeyinə hörmət gözləyə bilər, lakin Fransa prezidenti səhiyyə sektorunu və iqtisadiyyatı məhv edir, eyni zamanda enerji böhranını həll edə bilmir. Beləliklə, dağıdıcı siyasət Makronun prezidentliyi dövründə kulminasiya nöqtəsinə çatdı. Makron öz ölkəsinə təklif edə bilmədiyini xaricə necə təklif edəcək?". Bəli bu sual indi Azərbaycanı da ciddi şəkildə düşündürməkdədir. Çünki Praqa görüşündən sonra sülh sazişinin imzalanacağına dair ümidlərin xeyli artdığı bir zamanda Makron "fenomeni" ortaya çıxdı. Ölkəsindəki dağıdıcı fəaliyyətinə bənzər addımlarla iki il ərzində əldə edilənləri bir göz qırpımında məhv etməyi bacardı. Paşinyanı Cənubi Qafqaz bölgəsində özünün yeni "fransız kuklası" etdi. İndi isə əksəriyyəti fransızlardan ibarət "müşahidə missiyası" sərhəddimizə gəlir, özü də iki il müddətinə...

***Azad Əliyev***

# Vardanyan tamamilə nüfuzdan düşüb

***B**eynəlxalq siyasət üzrə analitik Teymur Qasımlı ilə hafta.az üçün növbəti söhbətimizdə 2023-cü ildə dünyada gözlənilən dəyişikliklər, Azərbaycan ekofəallarının Laçın-Şuşa-Xankəndi yolundakı məlum etiraz aksiyasının 44-cü günü ərzində əldə olunmuş nəticələr, Türkiyədə gözlənilən prezident və parlament seçkilərinin nəticələrinin Qarabağ və Ukraynada baş verənlərə mümkün təsirləri və s. haqda danışdıq.*

## Müsahib

***- Yeni 2023-cü ilin ilk bir ayını başa vurmaq üzrəyik. Üzdə görünən əsas hadisələr dünyamızı, bəşəriyyəti nələrə doğru aparır, görəsən?***

- Təəssüf ki, 2023-cü ilə Rusiya-Ukrayna müharibəsi ilə daxil olduq. Savaş daha da şiddətlənib. Hərbi əməliyyatlar, ağır insan itkiləri davam edir. Ukraynanın daxili işlər naziri belə həlak oldu, yenə də hər gün dinc sakinlər, qadınlar, uşaqlar həyatlarını itirir... Bir çox ölkələrdə ciddi hadisələr baş verir. Məsələn, Braziliyada dövlət çevrilişinə cəhd olundu. Azərbaycan ictimai və ekofəalları isə Laçın yolundakı məlum etiraz aksiyasının artıq 47-ci gününü də tamamladı...

Azərbaycan kimi, bütövlükdə dünyada da ciddi iqtisadi problemlər qalmaqdadır. Davos İqtisadi Forumu keçirildi. Ciddi uğurlu addımlar atılmasa da, bu tədbir müəyyən dərəcədə planetimizin iqtisadi təhlükəsizliyinin təminatında yer aldı. Bununla belə, bir sıra Avropa ölkələrində də iqtisadi, sosial problemlərlə bağlı kütləvi etiraz aksiyaları baş qaldırdı. Bütün bu baş verənlər fonunda, təəssüf ki, 2023-cü il üçün hər hansı optimist proqnoz vermək çox çətindir...

***- Azərbaycan ekofəallarının Laçın-Şuşa-Xankəndi yolundakı məlum etiraz aksiyasının 47-ci günü də tamamlandı. 2020-ci ildəki silahlı savaşımızın 44-cü günündə keçmiş Dağlıq Qarabağ ərazisinin və Laçın rayonunun bir hissəsi istisna olmaqla qalan torpaqlarımızı birbaşa Azərbaycan dövlətinin nəzarətinə qaytardıq. Bəs indiki 44 günlük "hibrid savaş"la, yaxud "yumşaq güc" nümayişi ilə nələrə nail ola bilmişik?***

- Azərbaycan ekofəallarının apardığı bu mübarizəni dəstəkləyirəm. Düzgündür, haqlıdır, ədalətlidir və yerindədir. Həmin aksiya ötən - 2022-ci ilin sonundan həm Azərbaycanın, həm də bütövlükdə dünyanın siyasi gündəmini dəyişən mövzulardan biri olub. Düzdür, bu günlər ərzində, hələ ki, "sülhməramlı"ların nəzarəti altındakı bəhs edilən qızıl və mis-molibden yataqlarında monitorunq keçirməyə nail olmamışıq. Düşünürəm ki, inşallah, buna da nail olacağıq. Bununla belə, Laçın-Xankəndi yolundakı aksiya sayəsində biz bir çox separatçı və revanşistlərin Qarabağdakı ermənilərin sosial həyatını dirçəldəcəyinə böyük ümid bəslədiyi Rusiya milyarderi Ruben Vardanyanın və onun arxasında duranların oyununu pozduq, onun tamamilə nüfuzdan düşməsinə nail olduq. Ermənistanın mərkəzi hakimiyyəti isə çaşbaş vəziyyətdə qalıb. Eyni zamanda Vardanyanın və bütövlükdə Xankəndindəki separatçı rejimin arxasında dayanan Kremli pat vəziyyətinə salmışıq. İstədiklərini diqtə edə bilmir.

> "
>
> *Xankəndindəki separatçı rejimin arxasında dayanan Kremli pat vəziyyətinə salmışıq*

Düzdür, ermənilər bu aksiyanı bəhanə edərək dünya ictimaiyyətində Azərbaycan barəsində guya "Qarabağdakı 100 mindən çox haykı blokadada saxlayan dövlət" imici yaratmağa çalışırlar. Bununla belə, sadaladığımız qazanclar göz qabağındadır. Amma tam olaraq istədiklərimizə nail olmamışıq.

***- Məsələnin mənfi tərəfi də var ki, işğalçı və separatçı, revanşist xislətli hayklar və onların havadarları sözügedən aksiyadan yenidən "çörəksiz, susuz, işıqsız, qazsız qalan" "əzabkeş erməni xalqı" obrazının gücləndirilməsi üçün istifadə edirlər ki, bununla da indi və gələcəkdə nəinki Laçın yolu ilə bağlı ümumiyyətlə, bütövlükdə Qarabağın bütün dağlıq hissəsi ilə, Şuşa və Hadrutla bağlı Azərbaycana təzyiq etsinlər, özlərinin gözlənilən separatçı, terrorçu, "partizan" hərəkatlarına "əsas" yaratsınlar. 1992-ci ildə də onlar eyni "əsas"larla bütün dünyanın gözü qarşısında Rusiyanın birbaşa dəstəyi ilə Xocalı, Şuşa və Laçını işğal etdilər... Bunların qarşılığında Azərbaycan olaraq hansı addımları atmalıyıq?***

- Sizinlə tam razıyam ki, sözügedən aksiyadan sonra ermənilər bütün dünyaya guya tam blokadada qaldıqlarını, aclıqdan, susuzluqdan öldüklərini car çəkirlər. Yanvarın 23-də Ruben Vardanyan "BBC"yə müsahibə verib ki, guya Azərbaycan Qarabağdakı hayların "işığın, qazın kəsib, soyuqdan donurlar - fəlakətdir". Guya Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti və "sülhməramlı"lar olmasa, acından öləcəklərmiş. Tamamilə yalan və absurddur. Dəfələrlə bildirmişik ki, Laçın yolunu Rusiya "sülhməramlı"ları kəsib. Biz sadəcə, öz torpağımızda aksiya keçiririk... Bütün dünya da video və fotogörüntülərdən Ermənistana və əksinə "təcili yardım" maşınları, humanitar yük daşıyan, uşaqları aparan avtomobillərin və s. buraxıldığının şahidi olur. Azərbaycan dövlət başçısı İlham Əliyev ABŞ Dövlət Katibi Entoni Blinkenlə son danışığında da bu mövzuda onu məlumatlandırıb. Çox təəssüf ki, dünyada bir sıra dairələr hələ də bu erməni yalanlarına uymaqdadır. Bəzi beynəlxalq təşkilat və ölkə parlamentləri Azərbaycana qarşı qətnamələr qəbul edir. Görünür, burada bizim diplomatiyamızın və informasiya savaşımızın da bəzi qüsurları var ki, məlum aksiya ilə bağlı və ümumiyyətlə, son illər Qarabağ ətrafında baş verənlər haqda həqiqətləri beynəlxalq ictimaiyyətə tam və uyğun şəkildə çatdıra bilmirik. Odur ki, Xarici İşlər Nazirliyi və diplomatlarımız, eləcə də mediamız bu sahədə ciddi işləməlidir. Məlumdur ki, hayklar onsuz da öz bəlli xislətlərindən əl çəkmirlər. Bunun qarşılığında Azərbaycan diplomatiya və informasiya sayəsində düzgün və ardıcıl addımlar atmalıdır. Nə Ermənistanın, nə də onun havadarlarının əlinə "əsaslar" verməməlidir...



**Teymur Qasımlı,**
Beynəlxalq siyasət üzrə analitik

***- Sizcə, Türkiyədə cəmi 4 aydan da az sonrakı bir vaxtda keçiriləcəyi gözlənilən prezident və parlament seçkilərinin nəticələri Qarabağ və Ukraynada baş verənlərə necə təsir göstərəcək? Yəni həm də söhbət Ərdoğanın yenidən seçilib-seçilməməsindən gedir...***

- Düzdür, mayın 14-də Türkiyədə prezident və parlament seçkilərinin keçiriləcəyi bildirilib. Amma bu, rəsmən təsdiqlənməyib. Türkiyədə seçkilər baş tutacağı və Ərdoğan yenidən qalib gələcəyi təqdirdə Rusiya Ukraynadakı savaşını tutduğu eyni mövqelərdən davam etdirəcək. Bu halda Türkiyə yenə də əvvəlki kimi, Ukraynanın ərazi bütövlüyünə dəstək verərək ona müxtəlif yollarla yardım göstərəcək, Rusiya ilə münasibətləri pozmayıb, yenə də müxtəlif sahələrdə əməkdaşlıq edəcək.

Azərbaycana, Qarabağa gəldikdə, Ərdoğanın yenidən qalib olacağı təqdirdə Türkiyə Cümhuriyyəti, dövləti, ordusu və xalqı həm də öz dövlət, milli maraqları çərçivəsində Azərbaycana həm yerli, həm beynəlxalq səviyyədə açıq dəstəyini davam etdirəcək və tam qələbəmiz istiqamətində gücləri yetdiyi yerə qədər bizimlə bərabər gedəcəklər...

Əks halda, yeni seçkilərdə Ərdoğanın deyil, müxalif namizədin qalib gələcəyi təqdirdə, nəzərə almaq lazımdır ki, Türkiyənin həmin "6-lı masa"da olan müxalif liderləri Rusiyaya qarşı olduğundan birbaşa Ukraynanı dəstəkləyirlər. Qalib gələcəkləri təqdirdə, təbii ki, onlar ABŞ-la daha çox yaxınlıq edəcəklər, amma Rusiya ilə münasibətləri də kəsməyəcəklər. Qarabağ məsələsinə gəldikdə, Türkiyənin iqtidarı kimi müxalifəti də daim bu sahədə bizə dəstək olub. Odur ki, seçkilərdə müxalifətin qalib gələcəyi halda da Türkiyə dövlətinin Azərbaycanın yanında olacağını düşünürəm. Düzdü, Ərdoğan kimi qətiyyətli olmayacaqlar, praqmatik siyasət də yürüdə bilərlər...

***- Avropa ölkələrində, xüsusən NATO üzvlüyünə namizəd olan və Türkiyə ilə məlum ziddiyyətləri olan İsveçdə islamofob dalğasının yenidən güclənməsini və Quranın yandırılmasını Rusiyanın neft-qaz gəlirləri hesabına bütün dünyanı bürümüş təxribatçı agentura şəbəkəsi ilə əlaqələndirmək olarmı? Bilirsiniz ki, fevralın 23-də Dövlət Departamentinin sözçüsü Ned Prays brifinqdə bunu ABŞ-ın iki yaxın tərəfdaşı olan Türkiyə və İsveçin arasını vurmağa yönəlmiş təxribatçı cəhd kimi dəyərləndirib...***

- Birincisi, son onilliklərdə zaman-zaman bir sıra Avropa ölkələrində Müqəddəs Kitabımız Qurani-Kərimin yandırılması olayları baş verib. Həmin İsveçdə də, Norveçdə də, Danimarkada da, Fransada da. Təəssüf ki, belə görünür, bu cür hallar hələ də davam edəcək... Rusiyanın bu işin təşkilatçısı olduğunu düşünmürəm. Rusiya Pravoslav Kilsəsi də Quranın yandırılmasına qarşı bəyanat verib. Onsuz da bir sıra Qərb ölkələri kimi, İsveçdə də dini ayrı-seçkilik, islamofobiya mövcuddur. Quranın yandırılmasına görə Türkiyə ilə İsveçin arasının dəyəcəyinə də inanmıram. Düzdü, iki ölkə arasında həll olunmamış digər məsələlər də var. Təəssüf ki, İsveç dövləti NATO-ya üzvlüklə bağlı Türkiyədən gələn tələbləri yerinə yetirmir, öz ərazisindəki "PKK"çılara dəstək verir. Bundan başqa, İsveç qondarma "erməni soyqırımı"nı da tanıyır. Yəni sadalananlardan fərqli olaraq Quranın yandırılması İsveç dövlətinin deyil, ayrı-ayrı radikal qrupların həyata keçirdiyi aksiya olduğundan Türkiyə dövləti də ona bu prizmadan yanaşacaq...

***Sultan Laçın***

## XƏBƏRİNİZ OLSUN...



■ Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi ilə görüşüb. Bu barədə səfir "Twitter" səhifəsində yazıb. Görüşdə müzakirə olunan məsələlər açıqlanmayıb.

---

■ Milli Məclisdə koronavirus (COVİD-19) ilə bağlı ölkədəki mövcud vəziyyət və görülən tədbirlərə dair dinləmə keçiriləcək. Bu, parlamentin Səhiyyə komitəsinin yaz sessiyası üçün İş planına daxil edilib.

---

■ Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizliyi Xidmət "İnzibati orqanların Təsnifatı"ndan çıxarılıb. Nazirlər Kabineti bununla bağlı müvafiq qərar verib. "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"nın "Naxçıvan Muxtar Respublikası üzrə hissəsindən də Dövlət Təhlükəsizliyi Xidmətinin Aparatı çıxarılıb.

---



■ NATO Baş katibi Yens Stoltenberq alyansın Ukrayna-Rusiya müharibəsində tərəf olmayacağını bildirib. Bu barədə Stoltenberq "Die Welt" qəzetinə müsahibəsində deyib. "NATO Ukraynadakı müharibədə tərəf olmayıb və olmayacaq. NATO-nun münaqişədə iştirak etməməsi alyansın Ukraynaya nə qoşun, nə də təyyarə göndərməməsi faktını sübut edir", - Stoltenberq bildirib.

---

■ Bakıda fevralın 3-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu toplantısı keçiriləcək. Bu barədə Energetika Nazirliyindən bildirilib. Məlumata görə, Cənub Qaz Dəhlizi Məşvərət Şurasıda bir sıra ölkələrin nazirlərinin, beynəlxalq enerji şirkətlərinini və digər qonaqların iştirakı nəzərdə tutulub.

---

■ Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Aztelekom" MMC-nin baş direktoru Klaus Müller tutduğu vəzifəni tərk edib. O, öz təşəbbüsü ilə səhhətində yaranan problemə görə işindən ayrılıb. Hazırda bu vəzifənin müvəqqəti icrası "Yüksəliş" müsabiqəsinin iştirakçısı Elçin Niyazova tapşırılıb.

---



■ Moldova hazırkı mərhələdə milli ordunun zəif təchiz olunması səbəbindən NATO-ya üzv olmağa hazır deyil. Bunu Moldova müdafiə naziri Anatoli Nosatıy deyib. "NATO-ya üzv olmaq üçün bir istək kifayət deyil. Bu, kifayət qədər güclü hərbi-siyasi təşkilatdır, ona daxil olmaq üçün bir sıra islahatlar aparmaq, ordunu modernləşdirmək, müəyyən standartlar tətbiq etmək, alyansın büdcəsinə töhfə vermək lazımdır", - nazir bildirib.

---

■ Filippin Hərbi Hava Qüvvələrinə məxsus təlim təyyarəsi Batan əyalətində qəzaya uğrayıb. Bu barədə "Manila Bulletin" məlumat yayıb. Məlumata görə, hadisə əyalətin Pilara rayonunda baş verib. Təyyarənin göyərtəsində iki pilot olub. Onların sağ qalıb-qalmaması barədə məlumat yoxdur.



# Avropanın qaz bazarında Əlcəzairin mövqeyi güclənir

***Bu** günlərdə İtaliya hökumətinin başçısı xanım Giorgiya Meloni Əlcəzairə səfər etdi. Çox xoş qarşılandı, ən yüksək səviyyədə görüşlər oldu və görüşlərə uyğun səviyyədə də müqavilələr imzalandı. Təbii ki, bunlardan bizim və hətta Avropanın özü üçün ən vacibi təbii qazın ticarəti haqqında olandır. Əslində bu hadisənin çox vacib mahiyyət daşımasını tək mən yox, elə Əlcəzair prezidenti, milli kimliyinə, torpağına, xalqına, elinə-dövlətinə sonsuz sevgi ilə bağlanmış və bu səbəbdən də şəxsiyyətinə böyük hörmət etdiyim Əbdülməcid Tebbun da deyir. Sitat: Əlcəzairlə İtaliya arasında yeni qaz kəməri layihəsi "fövqəladə əhəmiyyət kəsb edir" və Əlcəzairin elektrik enerjisi, ammonyak və hidrogen ixrac etməsi üçün "qısa müddətdə reallaşdırılacaq".*

## Təhlil

### Qaz axtarışı

**Bu arada, Rusiyanın Ukrayna torpaqlarına hərbi təcavüzünə qarşı çıxan Avropa Birliyi Moskvadan qaz idxalını dayandırdığı və ya dolayısıyla, rusların Avropaya cavab olaraq nəql etdiyi mavi yanacağın axımını dayandırdığı üçün "qoca qitə" qışın soyuğunda donur desək yanılmarıq.** Ona görə də dünənədək o qədər də əhəmiyyətli partnyor hesab edilməyən, bəzən hansısa məsələlərə görə üzərinə gedilən, yeri gələndə tənqid edilən, qınanılan ölkələrin qapılarına düşüblər. Bu ölkələrdən biri bizim Azərbaycandırsa, digəri də Əlcəzairdir. Çox maraqlıdır ki, bu iki dövlət - Azərbaycan və Əlcəzairi yalnız İslam mədəniyyəti deyil, tarixi dostluq əlaqələri birləşdirir. Qayıdaq Əlcəzair qazının İtaliyaya ixracı ilə bağlı müqaviləyə. Xanım Meloni də sazişdən məmnundur. Mətbuat konfransında deyib ki, ən qısa vaxtda texniki araşdırmalar aparılacaq və daha sonra tikintisi reallaşdırılacaq.

Cənab Tebbun da gözəl bir söz deyib: "Əlcəzair əsas təchizatçı olaraq italyanlarla əməkdaşlıqda yeni səviyyəyə keçmək istəyir. Çünki İtaliya elektrik, qaz, ammonyak və




hidrogenin timsalında enerjinin Avropaya paylanması üçün mərkəz olacaq.

Eynilə Türkiyə kimi. Bu yaxınlarda Moskva və Ankara razılığa gəliblər ki, Rusiya qazı Türkiyəyə nəql olunsun və buradan dünyanın istənilən bölgələrinə ixrac edilsin. Yəni Türkiyə yeni təbii qaz satış mərkəzi rolunu oynayacaq, qiymətləri müəyyənləşdirəcək və satacaq. Eyni mexanizm İtaliyada da yaradılacaq. Dünyanın ən böyük qaz hasilatçı və ixracatçılarından olan Əlcəzair təbii qazı yeni tikiləcək kəmərlə o qədər də uzun olmayan məsafədən İtaliyaya çatdıracaq. Ola bilər gələcəkdə Liviya, Misir qazı da bu ölkəyə satılsın və bütün Avropa mavi yanacağıməhz İtaliya üzərindən idxal etsin.

Yeri gəlmişkən, İtaliya Azərbaycanın da ən böyük strateji tərəfdaşıdır və Azərbaycandan da böyük həcmdə qaz idxal etməkdədir. Azərbaycan İtaliyaya TAP vasitəsilə 2021-ci ildə 6,8 milyard kubmetr, 2022-ci ildə isə 10 milyard kubmetrdən artıq təbii qaz ixrac edib. Avropanın enerji təhlükəsizliyini gücləndirmək məqsədilə bağlanmış son sazişə əsasən isə bu ölkəyə ixrac olunan təbii qazın həcmi iki dəfə artırılacaq. Buna baxmayaraq Azərbaycan İtaliyanın yanar qaz bazarında Əlcəzairdən sonra ikinci yerdədir. Yəni İtaliyanın ən iri qaz təminatçısı bu gün də Əlcəzairdir, sabah da yeni məlum saziş əsasında Əlcəzair olaraq qalacaq.

### Ədalətli yanaşma

**Bu yerdə bir məsələyə diqqət edək: İtaliya dünyanın ən böyük iqtisadiyyatlarından biri kimi, qlobal siyasətdə digər ölkələrə ən çox loyal münasibət bəsləyən ölkədir.** Əgər Fransa, Almaniya, hətta daha kiçik Avropa subyektləri yeri gələndə inkişaf etməkdə olan ölkələrlə "ucadan danışdığı" halda, İtaliya əksər vaxt sakit və sadəcə iqtisadi əlaqələrini inkişaf etdirən tərəfdaş qismində özünü göstərib. Azərbaycanla münasibətdə bir misal çəkim:

Fransa ermənilərlə bağlı heç olmayan, qondarma bir problem yaratmaq və onu qloballaşdırmaq istədiyi, Almaniya və çevrəsindəki ölkələr yerli-yersiz məsələləri qabartdıqları halda İtaliya səssiz-sədasız Azərbaycanın dünyada ən böyük ticarət tərəfdaşına çevrilməyi bacardı. Bu gün İtaliya təbii qaza olan ehtiyacını Azərbaycanın hesabına ödəyir, qarşılığında isə, əlbəttə, qazan-qazan prinsipi ilə Azərbaycana sərmayə yatırır, iş yerlərinin açılmasında rol alır, hətta dost ölkə olaraq Ermənistanın işğalından azad edilmiş ərazilərimizdə tikinti-quruculuq proseslərində iştirak edir.

İtaliya eyni münasibəti Əlcəzairlə də yaradıb. Elə baş nazir Meloni Əlcəzairdə olanda dostluq və strateji əməkdaşlıq haqda müqavilənin 20-ci ilini də qeyd edib və iki ölkə arasında sözün əsl mənasında dost əlaqələrin mövcudluluğundan fərəhlə danışıb. Hətta Meloni iqtisadi əlaqələrin uğurlu inkişafından ilhamlanaraq deyib ki, Avropanın düşdüyü enerji böhranı kontekstində Əlcəzair "Afrika və qlobal səviyyədə lider ola bilər və İtaliya bu enerjinin Avropaya çatdırılması üçün qapıdır". Bu sözün bir mənası da odur ki, Əlcəzair həm də Afrika qitəsinin sözsüz lideri ola bilər və hətta bu söz eyni iddiada olan Misir və Mərakeş kimi ölkələrin ünvanına siqnal da sayıla bilər.

### İtaliya qaz mərkəzi olacaq

**Əlcəzairin İtaliya başda olmaqla, Avropanın qaz təminatında üstün mövqe tutmasının başlıca səbəbi həm "qoca qitə"-yə çoğrafi baxımdan digər qaz təminatçılarından dəfələrlə yaxınlığı, həm də əvvəldən dənizin altı ilə inşa edilmiş qaz boru xətlərinin olmasıdır. Yoxsa ki, böyük qaz ixracatçısı olan Qətər, BƏƏ, Misir, Səudiyyə Ərəbistanı, hətta sanksiyalarla təcris olunmasına baxmayaraq müəyyən yollardan yararlanan İran heç vaxt Avropa kimi geniş bazarı əldən verməzdi.**

Amma belə demək mümkündürsə, hansı ölkənin nə düşünməsinə baxmayaraq, 2022-ci il Əlcəzair üçün "qızıl il" olub və ümumilikdə illik qaz ixracını 56 milyard kubmetrlə tamamlayıb. Amma bu son deyil, prezident Tebbunun da dediyi kimi, ölkə 2023-cü ildə qaz ixracının həcmini ikiqat artıraraq 100 milyard kubmetrə çatdırmağı hədəfləyib. Təbii ki, bu hədəfin içində İtaliyanın özünəməxsus payı olacaq. İki il öncəyədək Əlcəzairin İtaliyaya qaz ixracatı ildə 20-21 milyard kubmetr idisə, məsələn, ötən il yeni qaz yataqlarının kəşfi ilə bu həcm daha da artırıldı. Məlumata əsasən, 2022-ci ildə strateji əhəmiyyətini daha da artıran Əlcəzair İtaliyaya qaz ixracını 21 milyard kubmetrdən 25 milyard kubmetrə çatdırıb. Meloni ilə razılıqdan sonra bu həcmi tədricən yüksəltmək əzmi nümayiş etdiriləcək və ENİ Baş Meneceri Klaudio Deskalzinin də dediyi kimi, 2024-cü ilədək ildə 28, sonrakı illərdə isə 30 milyard kubmetr qaz İtaliya bazarına ixrac olunacaq. Əlbəttə, yeni qaz xətti tikilib istifadəyə verildikdən sonra ixracat ikiqat artacaq. Yaxın zamanlarda Əlcəzair üçün nəticə isə belə olacaq: qitənin enerji təhlükəsizliyində çox böyük pay alacaq, Əlcəzairin lider enerji şirkəti "Sonatrach" Avropanın əsas tərəfdaşlarından birinə çevriləcək, İtaliya başda olmaqla Avropalı tərəfdaşlar, xüsusilə də İtaliya investorları Əlcəzairin iqtisadi inkişafında rol alacaqlar və sair.

Bu arada qeyd edək ki, hazırda Əlcəzair Tunis üzərindən İtaliyanın Siciliya adasına, Mərakeş üzərindən İspaniyaya və bir də ayrıca xətlə İspaniyanın güneyindəki Almeriya şhərinə çıxmaqla, tam üç qoldan Avropaya qaz ixrac edir. Amma Qərbi Səhra problemi səbəbindən Mərakeş ərazisinə uzanan xəttin işində müəyyən problemlər yaranıb...

### Siyasi rəqabət

**Bir məsələni qeyd etmək istərdim ki, xanım Meloninin Əlcəzairə səfəri yalnız təbii qazın alğı-satqısı ilə bağlı deyil, başqa və çox geniş əlaqələri də özündə cəmləyib. İtaliyanın enerji nəhəngi ENİ zatən 1981-ci ildən Əlcəzairlə əməkdaşlıq edir və indi də Əlcəzairin güneyindəki neft mədənlərində istehsalla məşğuldur.**

Meloninin səfərində italiyalı iş adamlarının Əlcəzairin maşınqayırma sənayesinin, digər emal müəssisələrinin inkişafında, kiçik və orta şirkətlərin daha səmərəli iş sahəsi yaratmasına kömək göstərməkdə, karbon emissarlarının azaldılmasında, enerji istehsalı zamanı itkilərin və tullantıların qarşısının alınmasında, təhsil sahəsində, sosial infrastrukturun yenilənməsində və sair Əlcəzairdə oynaya biləcəyi rol da araşdırılıb. Yəni bu gün İtaliya ilə Əlcəzair arasında olduqca böyük əməkdaşlıq strategiyasının icrası məsələsi dayanır. Özü də bunlar sırf iqtisadi-ticarət müstəvisində olsa da, Afrika prizmasından yanaşdıqda və ən azından mənim qənaətimcə siyasi mənası da böyükdür.

Giorgia Meloninin hələ ötən ilin oktyabrında səsləndirdiyi maraqlı bir fikir var, sitat: Afrika ilə "sərvət oğurluğuna deyil, əməkdaşlıq və tərəfdaşlığa əsaslanan güclü əlaqələr" yaratmaq lazımdır və bu məsələdə Əlcəzair İtaliya üçün mühüm tərəfdaş ola bilər. Əlbəttə, xanım Meloni bu sözü deyərkən güman ki, Afrikada böyük maraqları olan Fransanın bağına daş atmışdı. Onu da unutmayaq ki, İtaliyada ifrat sağçı koalisiya hakimiyyətə gəlməzdən əvvəl Giorgia Meloni Fransanı "Afrika ölkələrinin hüquqlarına zidd olaraq qitənin təbii sərvətlərini və xammallarını haqsız olaraq istismar etməkdə" ittihamlamışdı. Meloninin fikrincə, məhz bu istismar səbəbindən inkişafdan qalmış afrikalılar Avropaya köçməkdədir. Bu səbəbdən də Afrikanın Avropaya doğru miqrasiyasını dayandırmağın həlli məhz Afrikanı bəzi avropalılardan xilas etməkdir. Meloni bu mövzuda ən sərt açıqlamalarından birini Fransa prezidenti Emmanuel Makrona xitab edərək "Bizə mühazirə oxuma, Makron, çünki afrikalılar sizin siyasətləriniz üzündən qitələrini tərk edib Avropaya gəlirlər" demişdi.

Olduqca ədalətli yanaşmadır. Afrikanı əsrlər boyu Afrikanı talan edən işğalçılardan, xüsusilə də Fransadan ən böyük zərbə alan ölkələrin başında elə Əlcəzair dayanır. Fransa ortalama 130 il ərzində Əlcəzairi sözün əsl mənasında talan edib, 1,5 milyon əlcəzairlini qətlə yetirib və nəticədə yüz minlərlə əlcəzairli iş gücü olaraq Fransaya və digər Avropa ölkələrinə yerləşiblər. Yəni xanım Meloninin fikirləri yüzdə yüz tarixi həqiqətlərin təsdiqidir. Xatırlayaq ki, ötən aylarda Fransa prezidenti Emmanuel Makron da qaz ticarəti ilə bağlı Əlcəzairə səfər etmişdi və əlbəttə ki, ölkəsinin müstəmləkə dövründə törətdiyi cinayətlərin məsuliyyətini öz üzərinə götürüb üzr istəməyi ağlının ucundan belə keçirmədi. Təbii ki, Makron Əlcəzairdə o qədər də xoş qarşılanmadıvə qaz satışına dair də hər hansı irəliləyiş əldə edilmədi.

Fransa ilə yanaşı İspaniya da Əlcəzairdən qaz idxalında böyük problemlə üzləşib. Səbəbi də məlumdur: Qərbi Səhra məsələsində Mərakeşi dəstəkləməklə keçmiş işğalçılıq siyasətini müasir Mərakeş üzərindən yenidən Səhra xalqına tətbiq edib.

Göründüyü kimi, Əlcəzairlə sıx əlaqələrə malik iki böyük dövlətin yanlışlarını nəzərə alan İtaliya daha doğru yol tapıb ki, bu da əlcəzairlilərin maraqlarına uyğundur. Əlcəzairlilər onlara səmimi yanaşan tərəfdaşlara səmimi də cavab verməyi bacarırlar. Məsələn, Əbdülməcid Tebbun ötən il may ayının 26-da İtaliya prezidenti Sergio Mattarella ilə keçirdiyi mətbuat konfransında da demişdi ki, "beynəlxalq, mənəvi və etik cəhətdən təkcə dost İtaliya ilə deyil, digər ölkələrlə də imzaladığı müqavilələri qorumaqda qərarlıdırlar. O, hələ o vaxt ölkəsinin İtaliya ərazisindən keçməklə bir sıra Avropa ölkələrinə qaz paylamaq səylərini vurğulayıb, Avropanın bir hissəsini elektrik enerjisi ilə təmin etmək üçün Əlcəzairdən İtaliyaya dənizin altı ilə xəttin yaradılması təklifini qabartmışdı. Hansı ki, eyni fikirlər Meloninin səfəri zamanısazişlərlə rəsmiləşib.

### Xalqlarımızı birləşdirən reallıq

**Sonda bir məqama da diqqət ayırmaq istərdim. Tarixən belə olub: əzən əzəni, əzilən isə əziləni müdafiə edib. Əlcəzair Fransanın işğalından 130 il ərzində o qədər əziyyət çəkib ki, bundan sonra əsrlər boyunca əlcəzairlilərin hafizəsindən silinməyəcək.** Azərbaycan da əsrlər boyu ruslardan və iranlılardan, eləcə də hər zaman onların əlində oyuncaq olmuş ermənilərdən böyük zərbələr alıb və bu, artıq bir xalq olaraq azərbaycanlıların yaddaşına həkk olunub. Fransa erməniləri dəstəklədiyi kimi, Azərbaycan da haqlı tərəf olaraq Əlcəzairin yanındadır. O cümlədən, üç ay öncə prezident İlham Əliyev Əlcəzairə səfəri zamanı bu ölkədə çox böyük sevgi-sayğı ilə qarşılandı, dövlətimizin başçısı əlcəzairlilərin acısını öz acısı bildi, Milli Mücahidlər Muzeyinin xatirə kitabına içindən gələn ən səmimi sözlərini yazdı: "Bu muzey Əlcəzair xalqına qarşı misli görünməmiş qəddarlıqla və şiddətlə həyata keçirilən müstəmləkə siyasətinin, müharibə və insanlıq əleyhinə cinayətlərin, müstəmləkəçi qüvvələrə qarşı ümumxalq mübarizəsinin, bir milyon yarım şəhidin canı bahasına qazanılmış müstəqillik qələbəsinin yaddaşlarda qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi baxımından müstəsna əhəmiyyət kəsb edir". Göründüyü kimi, Əlcəzairlə Azərbaycanı sadəcə İslam mədəniyyəti, qarşılıqlı sevgi-sayğı, hər sahədə üstün əlaqələr deyil, həm də çox acı tarixi bənzərliklər də birləşdirir. Bu baxımdan xanım Giorgia Meloninin simasında İtaliya dövlətinin Əlcəzairə, eləcə də Azərbaycana, ölkələrimizin fonunda haqqa-ədalətə uğurlu yanaşması xalqlarımızı məmnun edir, sevindirir və təbii ki, italyan xalqına eyni hörmətlə, sevgi ilə cavab veririk...

*Vüsal Tağıbəyli*

---




■ **İcbari tibbi sığorta çərçivəsində müştərək maliyyələşmə məbləği gələn il yanvarın 1-dən ödəniləcək. Bu, "Tibbi sığorta haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.**

İndiyə qədər qüvvədə olan qanuna əsasən, müştərək maliyyələşmə məbləği bu il yanvarın 1-dən ödənilməli idi. Qeyd edək ki, müştərək maliyyələşmə məbləği sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin icbari tibbi sığorta təminatı ilə əhatə olunmayan və sığortaolunan tərəfindən ödənilən hissəsidir. Qanuna əsasən, ilkin tibbi-sanitariya yardımına müraciət etmədən birbaşa ambulator-poliklinik, laborator, funksional-diaqnostik tibbi xidmətlərdən istifadə etdikdə sığortaolunan müştərək maliyyələşmə məbləği ödəməlidir.



■ **"Prezident İlham Əliyev gənclərlə görüşündə bir neçə maraqlı məqama toxunmuşdu". Bunu Milli Məclisin Gənclər və idman komitəsinin iclasında deputat Vüqar İskəndərov deyib.**

Deputat bildirib ki, bunlardan biri də parklarda sadə idman qurğularının quraşdırılmasıyla bağlı idi: "Biz komitə olaraq bununla bağlı aidiyyəti qurumlarla müzakirələr aparaq və öz təkliflərimizi verək. Regionlarda da, Bakıda da parkların hamısında sadə idman qurğuları quraşdırılsa, yaxşı olar. Çünki hər kəsin fitnes zallarına getməyə imkanı yoxdur". Vüqar İskəndərov bəzi idmançılarla bağlı xoşagəlməz hallara da toxunub: "Son vaxtlar idmançılar arasında həbslər olur, bu, cəmiyyəti düşündürür. Çox təəssüf ki, bu faktlar var.



■ **Rusiya qüvvələri aşağı keyfiyyətli olduğu üçün T-14 "Armata" döyüş tanklarını istifadə etmək istəmir. Bu barədə Böyük Britaniya Müdafiə Nazirliyinin Kəşfiyyat Xidmətinin yaydığı məlumatda bildirilib.**

Məlumatda qeyd olunub ki, Rusiya az sayda T-14 "Armata" əsas döyüş tanklarını Ukraynadakı döyüşlərdə istifadə etmək üçün operativ yerləşdirmələr üzərində işləsə də, ordu bu tanklardan istifadə etməyə o qədər də həvəsli deyil. "Rusiya qüvvələri son aylarda onlara ayrılan T-14-ün ilk transını qəbul etmək istəmirdi, çünki tanklar çox bərbad vəziyyətdə idi. Tankların hansı özəlliklərinin bu reaksiyaya səbəb olduğu dəqiq məlum deyil, lakin son üç il ərzində Rusiya rəsmiləri T-14-ün mühərriki və termal görüntü sistemləri ilə bağlı problemləri açıq şəkildə bildiriblər", - məlumatda qeyd olunub.



■ **Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin hərbi qulluqçusu, əsgər Salahov Əkram Asim oğlunun 2023-cü il yanvarın 24-də odlu silahdan atəş açmaqla özünü öldürməsi barədə Qubadlı Hərbi Prokurorluğuna məlumat daxil olub.**

Bu barədə Hərbi Prokurorluq məlumat yayıb. Məlumata görə, daxil olan məlumat əsasında Qubadlı Hərbi Prokurorluğunun əməkdaşları hadisə yerinə və meyitə baxış keçirilib, iş üçün əhəmiyyət kəsb edən predmetlər maddi sübut kimi götürülüb, izahatlar alınıb və digər hərəkətlər icra edilib. Fakt üzrə Qubadlı Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılaraq şahidlər dindirilib, müvafiq ekspertizalar təyin edilib və təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilib.



■ **Biz Ermənistan və Azərbaycanla birbaşa müzakirələrdə iştirak etməyə davam edirik. Bunu ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays keçirdiyi mətbuat konfransında deyib.**

O bildirib ki, Vaşinqton davamlı sülhə nail olunması üçün həm üçtərəfli, həm də çoxtərəfli formatlarda iştirakını davam etdirir: "Biz Ermənistan və Azərbaycanla birbaşa müzakirələrdə iştirak etməyə davam edirik. Biz bunu ikitərəfli edirik, biz bunu öz tərəfdaşlarımızla birlikdə edirik, biz bunu çoxtərəfli institutlar vasitəsilə edirik. Biz ötən il bunu bir neçə dəfə üçtərəfli qaydada etdik. Biz bu çox problemli məsələlərin həll üçün ən effektiv olan nədirsə, onu edəcəyik. Biz davamlı sülhə dəstəyimizdə sadiq olaraq qalırıq".



■ **Pensiya, müavinət və təqaüdlərin təyinatı kimi, həmin ödənişlərdə artımların edilməsi də vətəndaşların hər hansı quruma müraciət etməsinə, sənəd təqdim olunmasına ehtiyac olmadan elektron sistemlər üzərindən avtomatik şəkildə aparılır.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən hafta.az-a verilən xəbərə görə, 2022-ci ilin əvvəlindən pensiyaçılara ödənilən maddi yardımlar bu ilin əvvəlindən pensiyaları tərkibinə daxil edilməklə ümumilikdə 1 milyon 115 min insana yönələn pensiyaların, habelə 660 min insana yönələn müavinət və təqaüdlərin artırılması təmin edilib. Beləliklə, bu ilin əvvəlindən pensiya, müavinət və təqaüdlər üzrə 1,8 milyona yaxın şəxsin sosial ödənişlərində edilən həmin artımlar da onların hər hansı müraciətinə ehtiyac olmadan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən e-qaydada aparılıb.

# Yaşlı həkim və müəllimlərə ehtiyac var

***Azərbaycanda iş yerlərində tətbiq olunan 65 yaş senzinə yenidən baxılması təklif olunur. Bununla bağlı məsələni Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında millət vəkili Məlahət İbrahimqızı qaldırıb. Deputat deyib ki, 65 yaşı tamam olan müəllim, həkimlər avtomatik işdən çıxarılır: "Halbuki Avropada həkimləri 70 yaşına qədər saxlayırlar. Həkim 65 yaşından sonra harada işləsin? Həkim 320 manat pensiya alır. Bununla necə yaşasın? Pensiyaya çıxan müəllim və tibb işçilərinin ehtiyac olan bölgələrdə işlə təmin olunmasını təklif edirəm".***



## Problem

O, həmçinin əlavə edib ki, iş yerlərində bu gün üçün mövcud olan işçi ixtisarları süni şəkildə baş verir: "Ən çox əziyyət çəkilən məsələlərdən biri iş yerlərindən ixtisarlarla bağlıdır. Xahiş edirəm ki, plana uyğun olaraq ən azı dövlət qurumlarından, müvafiq nazirliklərdən siyahı alaq ki, heç olmasa son bir ildə orada nə qədər işçi ixtisarı olub? Əvvəl işsizlik problemi var idisə, bu gün işçi ixtisarları ilə bağlı şikayətlərlə qarşılaşırıq. Bu da süni ixtisarlardır. Fəxri fərman və ya təşəkkürnamə verilən şəxs bir aydan sonra yeni rəhbər gəlib deyə ixtisara düşüb. Səbəb də odur ki, səninlə işləmək istəmirəm. İxtisar olunmuş insanların da problemləri ilə bağlı ya ictiami dinləmə və ya müvafiq qurumlarla



**Nadir İsrafilov,**
təhsil üzrə ekspert

> *Təcrübəli, yaşlı nəsli təcrübəsiz gənc nəsillə əvəz etmək düzgün seçim deyil*

müzakirə keçirək". Komitə sədri Musa Quliyev M.İbrahımqızının çıxışına cavab olaraq bildirib ki, yaş limitinə qarşıdır: "Əgər həmin şəxs işində peşəkardırsa, fəaliyyətini davam etdirə bilər və kimsə də buna mane ola bilməz. Yaz sessiyası müddətində keçirilməsi nəzərdə tutulan əmək münasibətləri ilə bağlı dinləmələrdə bu məsələni də qaldıra bilərik".

Qeyd edək ki, artıq on bir ilə yaxındır Azərbaycanda müəllimlərin, həkimlərin işə qəbulu və fəaliyyəti zamanı yaş senzi tətbiq olunur. Belə ki, mövcud qanunvericiliyə əsasən, yaşı 65-ə çatmış müəllimlərlə, həkimlərlə əmək müqaviləsi yalnız müəyyən kriteriyalar əsasında bağlanır. Ümumiyyətlə, həm müəllimlərin, həm həkimlərin daha erkən yaşda təqaüdə çıxarılması ilə bağlı fikirlər müxtəlifdir. Bəzi müəllimlər və həkimlər təqaüd yaşının 65 yaş olmasının əleyhinədir. Onlar hələ bir neçə il çalışmaq istədiklərini bildirirlər.

Bəs, görəsən, hazırda müəllim və həkimlərin təqaüd yaşının artırılması nə dərəcədə zəruridir? Ümumiyyətlə, bu sahələrdə yaş senzinin tətbiqinin tamamilə aradan qaldırılması mümkündürmü?

■ **Mövzu ilə bağlı qəzetimizlə fikirlərini bölüşən təhsil üzrə ekspert Nadir İsrafilov bildirib ki, müəllimlərin 65 yaşında təqaüdə göndərilməsi əslində pis hal deyil:** "Çünki müəllimlər uzun illər zehni əməklə məşğul olurlar və yorulurlar. Bunların hamısı insanın mənafeyinə xidmət edir. Dünya ölkələrində bu, müxtəlif şəkildə həll olunur. Bizdə hazırda təqaüd yaşı 65 müəyyənləşib. Ümumiyyətlə, mən təqaüd yaşının aşağı salınmasının tərəfdarı deyiləm. Çünki 65 yaş, yaxud yüksək əməkhaqqı ilə təqaüdə çıxarılması bəziləri üçün məqbul sayıla bilər. Bunlar hamısı təklif olaraq qalır. Müəllimlik fəaliyyəti daha çox təcrübə ilə bağlıdır. Məsələn, əgər Nobel mükafatçılarının siyahısını nəzərdən keçirsək, orada cəmi 1-2 nəfər var ki, 40 yaşına qədər elmi kəşf edib. Zehni əmək elədir ki, 60-65 yaşdan sonra püxtələşmə gedir, təcrübə əmələ gəlir, praktiki cəhətdən özünü doğruldur. İndi biz 65 yaşına çatan kimi və yaxud 1 ay qalmış xəbərdaqlıq edirik ki, sən təqaüdə getməlisən. Bunları kim əvəz edir? Təbii ki, gənc müəllimlər.

Mövcud qanunvericilikdə nəzərdə tutulur ki, 65 yaşı tamam olandan sonra onun iş fəaliyyəti, təcrübəsini, xidmətini nəzərə alaraq daha 5 il müddətinə, ardıcıl 1 il olmaqla müqavilə imzalana bilər. Yəni bu müəllimin fəaliyyətində 70 yaşına qədər inkişaf varsa, narazılıq yoxdursa, razılaşma əsasında 5 il fəaliyyət göstərə bilər. Hətta qaydalarda dövlət mükafatları olanların 70 yaşdan sonra da iş müddətinin uzadılması imkanları nəzərdə tutulub. Ancaq təəssüf ki, bu qaydalara uyğun hərəkət edilmir. Müəllim 65 yaşa çatdıqda, onu dərhal işdən azad edirlər. Bu gün bir sıra məktəblərdə vakant yerlər var. Təcrübəli, yaşlı nəsli təcrübəsiz gənc nəsillə əvəz etmək düzgün seçim deyil".

Ekspertin sözlərinə görə, təkcə bir ildə çox sayda Əməkdar müəllim işdən azad edilir: "Dövlət ona Əməkdar müəllim fəxri adı verib, ancaq biz onu təqaüdə göndəririk. Bu müəllim ömrünün 45 ilini uşaqlara, təhsilə həsr edib, müqavilə müddəti başa çatdığı üçün onu təqaüdə göndərmək müəllim peşəsinə hömətsizlikdir, müəllimin nüfuzunun aşağı salınmasıdır. Strategiyada müəllim nüfuzunun yüksəldilməsi əsas hədəflərdən biri kimi göstərilir. Bəzən belə hallar da olur ki, ibtidai sinif müəlliminin 65 yaşı tamam olan kimi təqaüdə göndərilir. Niyə ona 4-cü sinif buraxılışını həyata keçirməyə imkan verməyək? Bundan başqa, müəllimi təqaüdə göndərəndə kollektivi toplayıb, haqqında xoş sözlər deyib, gül dəstəsi təqdim edər, xidmətinə görə bir Fəxri fərman verərlər. Belə şikayətlər də olur ki, yaşı tamam olmasına 1 ay qalmış xəbərdarlıq məktubu göndərirlər. Hesab edirəm ki, müəllimlərin təqaüdə tez çıxması ilə bağlı mövcud qaydalar düzgün həyata keçirilərsə, bu qaydaları real adlandırmaq olar. Hər hansı dəyişiklik aparmağa ehtiyac yoxdur. Əgər bu qaydaları pozub, sui-istifadə ediriksə, hansısa gənc kadrları yerləşdirmək, yer boşaltmaq məqsədilə yaşlı müəllimləri təqaüdə göndəririksə, bu, düzgün mövqe hesab olun bilməz.

Təcrübəli, yaşlı nəslin təcrübəsiz gənclərlə əvəz olunmasının nəticələri bu gün hiss olunmaqdadır. Nə qədər gənclər var ki, bəxti gətirib, keçid balını toplayıb. Yaxud elə hallar olur ki, bəzi müəllimlər təqaüdə göndərilir, heç onun yerində heç kəs yoxdur, dərslər birləşdirilir. Ona görə də müvafiq qaydalar məqbul sayılır. Bu şərtlə ki, obyektiv qaydada həyata keçirilsin".

■ **Mövzu ilə bağlı bizimlə həmsöhbət olan Sosial Strateji Tədqiqatlar Birliyinin rəhbəri, sosial sahə üzrə ekspert İlqar Hüseynli isə səhiyyə sahəsindəki vəziyyətə toxunaraq deyib ki, bu sistemdə də yaş senzinin tətbiqi problemlər yaradıb:** "Ümumiyyətlə, hesab edirəm ki, həkimlər üçün yaş senzi aradan qaldırılmalıdır. Bildiyimiz kimi həkimin 65 yaşı tamam olan kimi dərhal pensiyaya göndərirlər.

65 yaşa çatan həkimlərin yaş senzi səbəbindən kütləvi olaraq işdən azad edilməyini doğru olmayan bir addım hesab edirəm. Halbuki ölkənin əsas universitetlərində 75 yaşına qədər çalışan professor, müəllim heyəti var. Eyni zamanda, dövlət idarəçilik aparatında, Milli Məclisdə kifayət qədər o yaşda çalışan insanlar var. Pensiya yaşının təyin edilməsi o demək deyil ki, yaş tamam olan günün səhəri illərdir fəaliyət göstərən təcrübəli həkimlərin hamısı işdən azad edilsin".

İ.Hüseynli bildirib ki, hazırda bölgələrimizdə həkim çatışmazlığı problemi yaşanır. Belə məqamda yaş senzinin tətbiqi isə kadr çatışmazlığı yaradır:"Səhiyyə Nazirliyinin saytında yerləşdirilən vakansiyalara baxanda görmək olur ki, 100-ə qədər həkim tələb olunan rayonlar var. Bu qədər həkimə tələbat olduğu halda, yaş senzi tətbiq edib, əmək qabiliyyətini itirməyən həkimlərin işdən azad edilməsi doğru deyil. Həkim peşəkardır. Əgər bu və ya digər hansısa xəstəlik səbəbindən iş qabiliyyətini itiribsə, bu başqa məsələ. Amma bu məsələdə bir qədər daha geniş düşünmək lazımdır. Ölkədə Tibb Universitetini bitirən tələbələrə rezidentura təhsili tətbiq olunduqdan sonra 6 il təhsil alan həkim bir il internatura keçməklə həkim kimi fəaliyyətə başlayırdısa, artıq bu məsələ rezidentura ilə bir qədər



**İlqar Hüseynli,**
Sosial Strateji Tədqiqatlar Birliyinin rəhbəri, sosial sahə üzrə ekspert

> *Bu qədər həkimə tələbat olduğu halda, yaş senzi tətbiq edib, əmək qabiliyyətini itirməyən həkimlərin işdən azad edilməsi doğru deyil*

uzadılıb. Tibb Universitetini bitirən tələbələrin birbaşa həkim kimi fəaliyyətini rezidentura təhsili məhdudlaşdırır".

Ekspert onu da vurğulayıb ki, inkişaf etmiş ölkələrdə fəaliyyət göstərən məşhur həkimlərin əksəriyyəti 65-70 yaşında olanlardır. Həm tibbi xidmət göstərirlər, həm də tədrislə məşğul olurlar: "65 yaşı tamam olan həkimin əlinə xəstə vermək olmaz" yanaşması doğru deyil. 65 yaşdan sonra həmin həkimlər özəl klinikalara gedib, fəaliyyət göstərirlər. Amma özəl klinikalar olmayan yerlərdə 65-i keçən həkimlərin üzünə qapılar bağlanır. Necə olur ki, 65 yaş tamam olan günə qədər işləyib, bir günə əmək qabiliyyətini itirir? Düzdür, istisnalar var ki, Səhiyyə Nazirliyinin təlimatına görə, daxili əmrlə 65 yaş tamam olsa da, həkim müqavilə əsasında çalışa bilər. Bu da 5 il olur. Elə həkimlər var ki, 65 yaşda işdən çıxarılıb, amma 40 yaşındakı həkimdən geri qalmır, əksinə, professionallıqda ondan yüksəkdirlər. Təbii ki, yaş senzinin tətbiqi kadr çatışmazlığını daha qabarıq şəkildə ortaya qoydu. Gənclərin də maddi təminatı olmadığından bölgələrə getməkdən imtina etdilər və daha çox Almaniya, Türkiyə kimi ölkələrin klinikalarına üz tutdular".

*✍ Sevinc*

## Hesabat



***Son illərdə kiçik və orta sahibkarlığın inkişafı istiqamətində dövlət dəstəyinin əhatə dairəsi xeyli genişlənib. Bu gün sahibkarlıq subyektlərinin maliyyələşdirilməsində dövlət xüsusi paya malikdir.***

# Sahibkarlıq subyektlərinə dəstək genişlənir

Qeyd edək ki, bu dəstək tək aşağı faizli kreditlərin ayrılması ilə yekunlaşmır. Həm də sahibkarlıq subyektlərinin fəaliyyətini stimullaşdırmaq, daha da asanlaşdırmaq və qeyri-neft sektorunun inkişafındakı rollarını artırmaq məqsədi ilə həm müxtəlif vergi güzəştləri tətbiq edilir, həm də qanunvericilik bazası təkmilləşdirilir.

■ **2023-cü ildə Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu güzəştli kreditlər üçün 150 milyon manat ayıracaq.** Bu barədə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondunun idarəetmə heyətinin sədri Osman Xaliyev 2022-ci ilin yekunlarına həsr edilən mətbuat konfransında deyib. Onun sözlərinə görə, fond sahibkarlıq subyektləri üçün ayrılan güzəştli kreditlərin həcmini hər il artırmaq niyyətindədir.

> *2023-cü ildə Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu güzəştli kreditlər üçün 150 milyon manat ayıracaq*

Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu işğaldan azad olunmuş ərazilərdə sahibkarlıq subyektləri üçün yeni kredit mexanizmləri də qəbul edib. Onun sözlərinə görə, bu sahibkarlıq subyektləri üçün kredit portfeli 500 milyon manat dəyərində formalaşıb. "Bu mexanizm çərçivəsində tərəfimizdən dövlət təminatı üçün 450 milyon manat, subsidiyalaşdırma üçün isə 150 milyon manat ayrılıb", - o qeyd edib. Xaliyev, həmçinin, Qarabağdakı sahibkarlıq subyektinin əldə edə biləcəyi güzəştli kreditin maksimal həcminin beş milyon manatdan artıq olmayacağını vurğulayıb. "Verilən kreditlərin 90 faizinə dövlət tərəfindən təminat verilə bilər, faiz dərəcəsi isə 15 faizdən yüksək olmamalıdır", - o qeyd edib.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fonduna təqdim olunan layihələrin ümumi dəyəri 399,4 milyon manat təşkil edib. Osman Xaliyev 2022-ci ilin yekunlarına həsr edilən mətbuat konfransında deyib. "2022-ci ildə fəaliyyətimizin əsas istiqamətlərini güzəştli kreditlər, dövlət təminatlarının verilməsi və cari kreditlərin subsidiyalaşdırılması təşkil edib", - o deyib. Xaliyev, həmçinin, kreditlərin 70 faizinin bölgələrdə verildiyini qeyd edib. Bakının payına 17 faiz, Abşeronun payına isə 13 faiz düşüb. Onun sözlərinə görə, investisiya layihələrinin əksəriyyəti istehsal, təkrar emal və kənd təsərrüfatı kimi sahələrlə bağlı olub.

2022-ci ildə Azərbaycanda subsidiyalaşdırılmış kreditlərin həcmi 26,1 milyon manat təşkil edib. Osman Xaliyev deyib. Onun sözlərinə görə, bu vəsait əsasən pandemiyadan əziyyət çəkən sahibkarlıq subyektləri üçün ayrılıb. "Bütün bu vaxt ərzində bizə subsidiyalaşdırma üçün 6,338 min müraciət daxil olub, onların 5,052 mini üzrə 877,4 milyon manat ayrılıb", - sədr əlavə edib.

Qeyd edək ki, 2022-ci ilin yekunlarına əsasən, Sahibkarlığın İnkişafı Fondu tərəfindən 104,2 milyon manat güzəştli kredit ayrılıb. Bu məbləğ 2,71 min kiçik və orta sahibkarlıq layihəsini əhatə edib.

*✍ Sevinc*

## ELAN

**Açıq hərrac:** Hərracı keçirən "Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi" MMC, hərraca sifariş verən icra qurumu Masallı rayon İcra və Probasiya Şöbəsi. Hərrac 09.02.2023-cü il tarixdə saat 15:00-da növbəliklə Bakı ş., Yasamal r., C.Cabbarlı k., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) keçiriləcək.Hərraca çıxarılan əmlak: 13/01 LOT üzrə İsgəndərov Mehralı İsgəndər oğluna məxsus "İJ 27175" yük markalı 01 BH 455 d.q.n (buraxılış ili: 2007, rəngi ağ, tip furqon) satış qiyməti - 4050 manat. Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi vaxta 3 (üç) iş saatı qalmışa qədər əmlakın satış qiymətinin 10% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: "Expressbank" ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ01350100000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az <mailto:office@e-herracmerkezi.az>; <https://www.facebook.com/>

**Açıq hərrac:** Hərracı keçirən "Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi" MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra Şöbəsi. Hərrac 09.02.2023-ci il tarixdə saat 15:00-da növbəliklə Bakı ş., Yasamal r., C.Cabbarlı k., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) keçiriləcək.Hərraca çıxarılan əmlak: 11/01 LOT üzrə Abdullayev Hüseyn Abbas oğluna məxsus Bakı şəhəri Sabunçu rayonu Bilgəh qəsəbəsi A.Salahzadə küçəsi döngə 2 ev 1 ünvanında yerləşən fərdi yaşayış evi (ümumi faydalı sahəsi 8129,6 kv.m) satış qiyməti - 3.240.000 manat. Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi vaxta 3 (üç) iş saatı qalmışa qədər əmlakın satış qiymətinin 5% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: "Expressbank" ASC kod 510891; VÖEN 15000-31691; m/h AZ11NABZ01350100000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az <mailto:office@e-herracmerkezi.az>; <https://www.facebook.com/>

**Açıq hərrac:** Hərracı keçirən "Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi" MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra Şöbəsi. Hərrac 09.02.2023-ci il tarixdə saat 15:00-da növbəliklə Bakı ş., Yasamal r., C.Cabbarlı k., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) keçiriləcək.Hərraca çıxarılan əmlak: 11/02 LOT üzrə "Araz-S" Kiçik Müəssisəsinə məxsus Bakı şəhəri Qaradağ rayonu Salyan şossesi Bakı-Qazax yolunun 15-ci km-də yerləşən 4,3 ha torpaq sahəsi satış qiyməti - 3.096.000 manat. Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi vaxta 3 (üç) iş saatı qalmışa qədər əmlakın satış qiymətinin 5% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: "Expressbank" ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ01350100000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az <mailto:office@e-herracmerkezi.az>; <https://www.facebook.com/>

# "Breyn Rinq" bilik yarışında mübarizə daha da gərginləşir

R



**"Nar"ın dəstəyi ilə 20-ci mövsümü keçirilən "Breyn Rinq" intellektual oyununda mövsümün tən yarısı geridə qalıb.**

Yarışın yarıdan çox hissəsinin geridə qalmasına baxmayaraq iştirak edən bütün komandaların çempionluğa şansları hələ də qalmaqdadır. Bu səbəbdən də 20 komandanın iştirak etdiyi oyunda mübarizə daha da gərginləşir. Bu komandalar Azərbaycanın 10 bölgəsini və 7 universitetini təmsil edir. Mobil operatoru təmsil edən "Nar" komandası da Yüksək liqada yer alır. Ölkənin intellektual inkişafında böyük rol oynayan "Breyn Rinq" yarışını hər həftənin bazar günü saat 18:20-də İctimai Televiziyadan izləyə bilərsiniz. Elm və təhsilin inkişafına dəstək "Nar"ın əsas KSM istiqamətlərindən biridir. Mobil operatorun həyata keçirdiyi sosial layihələr haqqında ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək olar. "Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Qərbin İslam qorxusu

**_Son günlərdə Avropada islamafobiyanın yeni dalğası başlayıb. Müsəlmanların müqəddəs kitabı Quranın yandırılması, cırılması kimi aşağılayıcı hərəkətlərin şahidi oluruq. Ən çox təəssüf və hiddət doğuran məqam isə odur ki, dünya, xüsusilə də məlum olayların yaşandığı bu ölkələr müsəlman dünyasında hiddətlə qarşılanan təxribatlara haqq qazandırır, bunu "insan hüquq və azadlıqlarının bir parçası" adlandırır._**



## Təxribat

Xatırladaq ki, Danimarkanın ifrat sağçı Sərt İstiqamət Partiyasının lideri Rasmus Paludan yanvarın 21-də İsveçin paytaxtı Stokholmda Qurani-Kərimi yandırıb və etiraz aksiyası zamanı heç kimin Paludana yaxınlaşmasına icazə verilməyib. Yanvarın 24-də isə Niderlandda Qərbin İslamlaşmasına Qarşı Vətənpərvər Avropalılar (PEGIDA) hərəkatının lideri Edvin Vaqensveld Haaqada təkbaşına keçirdiyi aksiyada Quranı cırıb. Bu azmış kimi, islamofob hərəkətləri ilə tanınan Rasmus Paludan yeni təhdid gəlib. O, çeçen əsilli İsveç vətəndaşı, qarışıq döyüş növləri üzrə döyüşçü Həmzət Çimayevin onu "terrorçu" adlandırmasına cavab verib.

Paludan yazıb: "Həmzətin məni təhqir etməsinə cavab olaraq və bütün çeçenlərə xüsusi salam kimi onların kitabını Rusiya səfirliyinin qarşısında yandıra bilərəm". İsveç mətbuatına açıqlama verən Paludan, etdiklərinə görə peşman olmadığını bildirib və əlavə edib: "Mən bunu mühüm siyasi səbəblər olduğu üçün etdim. Bu qədər insanın məni öldürməklə hədələməsi məni kədərləndirir".

### Müsəlmanlara qarşı nifrətin ifadəsi

**Lakin bu əməlləri qınayanlar da az deyil. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının (OHCHR) sözçüsü Ravina Şamdasani İsveç və Niderlandda Quranın yandırılması və cırılmasını hörmətsizlik və məsuliyyətsiz davranış kimi qiymətləndirib.**

BMT-nin Sivilizasiyalar Alyansının Ali Nümayəndəsi Migel Angel Moratinos isə İsveçin paytaxtı Stokholmda İslamın müqəddəs kitabı Quranın bir nüsxəsinin yandırılmasını "alçaq hərəkət" adlandırıb və qətiyyətlə pisləyib. "Qurani-Kərimin yandırılması müsəlmanlara qarşı nifrətin ifadəsidir, bunu söz və ifadə azadlığı ilə qarışdırmaq olmaz", - Moratinos qeyd edib.

Ali nümayəndə dünyanın müxtəlif yerlərində dini icmaların üzvlərinə qarşı ayrı-seçkilik, dözümsüzlük və zorakılıq hallarının, o cümlədən islamofobiyanın ümumi artımından dərin narahatlığını ifadə edib. Moratinos ədalətli, sülhsevər cəmiyyətlərin qurulması və dəstəklənməsi üçün qarşılıqlı hörmətin vacibliyini vurğulayıb.

BMT-nin Baş katibi Antoniu Quterreş İsveçin paytaxtı Stokholmda Qurana qarşı alçaldıcı davranışı pisləyib. Bunu Təşkilat başçısının ofisi bildirib. Məlumata görə, Quterreş bu hərəkəti dinlərə qarşı günümüzdə artan nifrətin simvolu olaraq dəyərləndirib.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu İsveçin paytaxtı Stokholmda müqəddəs "Qurani-Kərim"in yandırılmasını qətiyyətlə pisləyib. Nazir bunu İslam əleyhinə alçaq və irqçi hərəkət adlandırıb. "Nifrət, ksenofobiya və irqçiliyin təzahürü söz azadlığı ilə heç bir əlaqəsi yoxdur! Ümid edirəm ki, İsveç hakimiyyəti lazımi tədbirləri görəcək. Əks halda, aksiyaya bütün dünyada kəskin mənfi reaksiya nümayiş etdiriləcək", - Çavuşoğlu bildirib. Türkiyə Prezidentinin rəsmi nümayəndəsi İbrahim Kalın isə bunu "müasir barbarlıq" adlandırıb. Avropa İttifaqı Komissiyasının sözçülərindən Yohannes Bahrke İsveçdə Qurani-Kərimin yandırılması ilə bağlı təxribat xarakterli hərəkəti dəyərləndirib. Bahrke bildirib ki, İsveç səlahiyyətliləri tədbir görməlidir: "Əvvəllər dəfələrlə dediyimiz kimi, irqçilik, ksenofobiya, irqi və dini nifrətin Aİ-də yeri yoxdur. Bu, İsveç səlahiyyətlilərinin diqqət etməli və tədbir görməli olduğu bir şeydir".

### Paludanın ideya atası

**İsveçdə Quranı yandıran danimarkalı siyasətçi Rasmus Paludanın iyrənc əməlinin əvəzini ödəyən Çanq Frik təxribatın təfərrüatlarını açıqlayıb. İsveç mətbuatı ikisi arasındakı mesajları öz səhifələrində yayıb.** İsveçin "Expressen" qəzetinin "Paludan: Quranı yandırmaq mənim fikrim deyil" başlıqlı xəbərində qalmaqalla bağlı yeni məlumatlar yer alıb. Xəbərdə qalmaqalın memarı olan Paludanın Quranı yandırmağın onun ideyası olmadığını iddia etdiyi bildirilir. İdeyanın şou haqqını ödəyən Çanq Frikdən gəldiyi bildirilib. Jurnalist Frik isə əvvəlcə Ərdoğan əleyhinə nümayiş keçirəcək fəallarla əlaqə saxladığını bildirib. Frik dəstəkçilərinə bu addımın müsəlmanlara qarşı təxribat deyil, Türkiyəyə qarşı etiraz hərəkəti olduğunu dediyini vurğulayıb. Xəbərdə ikisi arasında olan mesajlaşmanın şəkli də yer alıb. Jurnalist Paludanın qalmaqallı əməlindən ödənişi etdikdən sonra xəbər tutduğunu bildirərək günahı onun üzərinə atıb.

### Azərbaycandan etiraz

**Qafqaz Müsəlmanları İdarəsi də (QMİ) Stokholmda "Quranı-Kərim"in yandırılması ilə bağlı bəyanat yayıb. QMİ bəyan edir ki, yanvarın 21-də Stokholm şəhərində İsveç dövlətinin rəsmi icazəsi və himayəsi altında ultra-sağ "Sərt xətt" partiyasının başçısı tərəfindən, habelə Hollandiyada "Pegia" qrupunun lideri tərəfindən demokratiya və ifadə azadlığı şüarı altında İslam dininə, onun mübarək Peyğəmbərinə (s), Quranı-Kərimə, bütün müsəlmanlara qarşı törədilmiş həqarət aktları birmənalı olaraq nifrətə çağırış, insanların əqidəsinə və ləyaqətinə qarşı törədilən mənəvi cinayətdir.**

Qeyd olunub ki, insan hüquqlarına, ləyaqətinə, millətlər və dinlər arasında qarşılıqlı ehtirama əsaslanan ədalətli, sülhsevər cəmiyyətlərin qurulması yolunda səylər göstərildiyi bir zamanda dünyada artmaqda olan islamofobiya təzahürləri, İslamı və müsəlmanları hədəf alan nifrət çağırışları və təhqir əməlləri bizim hədsiz narahatlığımıza və etirazımıza səbəb olur:

"Belə halların özünü demokratiya carçısı, "söz azadlığı"nın beşiyi kimi qələmə verən bəzi Avropa ölkələrində cərəyan etməsi, üstəlik, bilavasitə dövlət qurumları tərəfindən izn verilərək şərait yaradılması olduqca üzücüdür. İki milyarda yaxın ardıcılı olan İslam dinini hədəf alan bu təhqir aktını qətiyyətlə pisləyir və bəyan edirik ki, artıq dəfələrlə törədilən və bu gün də törədilməkdə olan bu kimi alçaq əməllərin məqsədi beynəlxalq miqyasda ekstremizmə təkan vermək, terroru təşviq etməkdir. Dini zəmində qarşıdurmaya təşviq edən belə çağırış, təcavüz və zorakılığa təhrik edən bu cür əməllər bəşəri təhlükəyə çevrilməkdədir. Dindən siyasi məqsədlər üçün sui-istifadə halları, ksenofobiya təzahürləri cəmiyyətlərin və dövlətlərin daxili sabitliyini pozmağa, qarşıdurma və nifaq yaratmağa xidmət edir.

Qafqaz Müsəlmanları İdarəsi - dini mərkəz olaraq bütün dünya ölkələrini, beynəlxalq təşkilatları və dini qurumları törədilən əməli qətiyyətlə qınamağa və din pərdəsi altında hər hansı radikalizm təzahürlərini, dindən suiistifadə edən ekstremizm, ksenofobiya hallarını, inancından, əqidəsindən asılı olmayaraq insanların mənəvi dəyərlərinə, dini rəmzlərinə və şəxsiyyətlərə, dinlərin müqəddəs məkanları və atributlarına qarşı nifrət çağırış və təhqir hallarının baş verməməsi üçün daha ciddi səy göstərməyə çağırırıq. Bir daha vurğulamaq istəyirik ki, söz azadlığı heç də mənəvi hisslərə toxunmaq, nifrətə çağırışlara təhrik etmək deyil, əksinə, insanları mənəviyyata dəvət etmək olmalıdır. Dünya hamımızın ümumi evidir və bu evdə əmin-amanlığı qorumaq hər birimizin vəzifəsi və borcudur".

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) İsveçin paytaxtı Stokholmda aksiya zamanı Qurani-Kərimə qarşı təhqiramiz hərəkəti pisləyib. Bu barədə Azərbaycan XİN tviterdə bildirib. "Açıq nifrət cinayəti kimi islamofob hərəkətlər söz azadlığının ifadəsi deyil. Biz İsveç hökumətini bu nifrət cinayətini törədənləri təzliklə ədalət mühakiməsi qarşısına çıxarmağa çağırırıq", - paylaşımda deyilir.

Qeyd edək ki, İslam dininə qarşı Avropada demokratiya adı altında təxribatların törədilməsi ardıcıl olaraq həyata keçirilir. Fransadan tutmuş Hollandiyaya, İsveçə qədər bir çox ölkələrdə söz və ifadə azadlığı altında Məhəmməd Peyğəmbərin karikaturalarının dərc olunması, Quranın yandırılması, cırılması aksiyalarının zaman-zaman şahidi olmuşuq. Hətti bəzi bu olayların yüəsandığı ölkələrin dönəmlərdə müsəlman dünyasının boykot qərarlarından qorxaraq açıq şəkildə üzr istədiklərini də görmüşük. Lakin təxribatlar səngimir, Qərb dünyasının islamofobiya meyllərinə nə dərəcədə açıq dəstək verdiyi özlərinin də etiraf etdiyi reallıqdır.

*Azad*

## HƏFTƏ REYTİNQ

### Həftənin İTKİSİ



Əməkdar artist Tünzalə Əliyeva dünyasını dəyişib. Bununla bağlı məlumatı həyat yoldaşı verib. O, xərçəng xəstəliyindən əziyyət çəkirdi.

Qeyd edək ki, Tünzalə Əliyeva 1973-cü ildə anadan olub. Aktrisa "Çal-çağır" şousundakı "Toppuş bacı" obrazı ilə məşhurlaşmış və sevilmişdi. O, son olaraq İrəvan Dövlət Dram Teatrında çalışırdı. Bir çox televiziya verilişlərinin aparıcısı olub, onlarla serial və filmdə rol alıb. Allah rəhmət eləsin!

### Həftənin PROQNOZU



Dünyanın ən varlı adamlarından biri olan "Microsoft"un qurucusu Bill Qeyts yaxın illərdə baş verə biləcək pandemiya ilə bağlı açıqlama verib. Bill Qeyts bunu Avstraliyanın paytaxtı Sidneydə keçirilən görüşdə deyib. Görüş zamanı Bill Qeyts növbəti virusun təbii deyil, insan tərəfindən yaradılacağını qeyd edib. Qeyts dünya liderlərinə növbəti virusa hazırlaşmalı və qabaqcadan plan qurmalı olduqlarını söyləyib.

### Həftənin XƏSTƏSİ



Bir neçə gün əvvəl xəstəxanaya yerləşdirilən və ürək əməliyyatı keçirən Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayev evə buraxılıb.

Məlumata görə, 82 yaşlı Nazarbayevin vəziyyəti yaxşılaşdığından xəstəxanadan evə buraxılıb. Xatırladaq ki, N. Nazarbayev yanvarın 20-si Astanada yerləşən xəstəxanaların birinə yerləşdirilib və həmin gün əməliyyat olunub.

### Həftənin SATIŞI



Rusiyalı iş adamı Roman Abramoviç və onun tərəfdaşlarına məxsus Britaniyanın "Truphone" telekommunikasiya qrupu iki avropalı sahibkara bir funta (2 manat) satılıb. Bu barədə "Financial Times" məlumat yayıb. Məlumata görə, şirkətin yeni sahibləri işlənmiş avtomobillərlə məşğul olan alman iş adamı Hakan Koç və onun əvvəllər telekommunikasiya sahəsi ilə məşğul olan biznes ortağı Pirros Kussios olub. "Truphone"nun satılması qərarı Qərbin sanksiyaları səbəbindən verilib.

### Həftənin TƏNQİDİ



Parisdə "Schiaparelli" brendinin yeni kolleksiyasının təqdimatı baş tutub. Gecədə İrina Şeyk, Şalom Harlou, Naomi Kempbell və digər modellər tamaşaçıların qarşısına brendin müxtəlif libaslarında çıxıblar. Modellərə yanaşı təqdimatda milyarder, iş xanımı Kayli Cenner də iştirak edib. O, gecəyə şirbaşlı libasda qatılıb. Yeni kolleksiyanın geyimlərindəki şir və canavar başları birmənalı qarşılanmayıb. İzləyicilər bunu heyvanlara qarşı şiddət, zorakılığın təbliği kimi qəbul ediblər. Tədbirdən görüntülərə "bərbaddır", "kolleksiya daha yaxşı ola bilərdi, kreativ heç nə görmürəm", "şərhsiz", "bu nəyə lazımdır" və s. şərhlər yazılıb.

### Həftənin TRANSFERİ




"Qarabağ" Albaniya millisinin futbolçusu Redon Cicanın transferini açıqlayıb. Bununla bağlı Ağdam klubunun sosial şəbəkə hesabında video paylaşılıb. Son olaraq ölkəsinin "Tirana" komandasında çıxış edən 25 yaşlı forvardla 3,5 illik müqavilə imzalanıb.

*Azad Əliyev*

# Son zamanlar respirator viruslar artıb

**Son zamanlar havaların qeyri-sabit keçməsi ilə əlaqədar hər il soyuq mövsümdə gördüyümüz respirator viruslar artıb. Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, pediatr Əkbər Quliyev deyib. Onun sözlərinə görə, virus üst və alt tənəffüs yollarını tutur:**

"Bu şikayətlərlə poliklinikalara müraciət edən uşaqlar var. Virus boğaz və burunun selikli qişasına yerləşir. Bunun nəticəsində boğazda ağrı və burun axması yaranır. Daha sonra virus bronxların selikli qişalarını zədələyərkən öskürək də yaranır. Bronxlarda selikli qişa tam bərpa olunana qədər bu davam edir.

İlk 3-4 gün virusun şiddətli günləridir. Qızdırma dərmanlarla düşməsə, tibb müəssisələrinə yaxınlaşmaq lazımdır.



Bol su içmək lazımdır. Baş, göz, qulaq ağrısı, gözlərdə çirk gəldikdə bu, virusun ağırlaşmış formasıdır. Bu zaman mütləq həkimə gedilməlidir. 6-7 yaşdan aşağı uşaqlar tez-tez xəstələnir. Əgər bu yaşda olan uşaqlar ildə 9 dəfə xəstələnirsə bu normaldır". Həkim eyni zamanda qeyd edib ki, 6 aydan yuxarı yuxarı uşaqlara sentyabr-oktyabr ayında qrip peyvəndinin vurulması məsləhət görülür. Poliklinikalarda peyvənd vurdurmaq mümkündür.

## GÜNÜN FOTOSU



İngiltərə futbol çempionatının son turunda yaşanan maraqlı an

# Yaşlı həkim və müəllimlərə ehtiyac var

**Nadir İsrafilov,**
təhsil üzrə ekspert

Təcrübəli, yaşlı nəsli təcrübəsiz gənc nəsillə əvəz etmək düzgün seçim deyil. Səh. 7

## STATİSTİKA



**■ Hazırda ölkədə tibbi heyətin sayı 100 min nəfərə çatıb. Onlardan 32 min nəfəri ixtisaslaşmış həkimlərdir.**

Azərbaycanda əhalinin hər 1000 nəfərinə düşən həkim sayı 3.2 təşkil edir. Bu göstərici 2018-2021-ci illərin məlumatlarına əsasən Avropa Birliyi ölkələrində 3.9, OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) ölkələrində isə 3.6 təşkil edir.




Səh. 6

# Avropanın qaz bazarında Əlcəzairin mövqeyi güclənir